

## Milli azadlıq uğrunda mübarizənin başlanğıcı

3

## Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlıq, birlik səfəri



7

*Bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz.*


Səs

№ 046 (6487) 12 mart 2022-ci il. Qiyməti 60 qəpik


# Əgər Rusiya və Ukrayna müttəfiq olsaydı...

2



13

**Dünyanı diqqət mərkəzində qalmaqda davam edən Rusiya-Ukrayna müharibəsi və Rusiyanın Ukrayna qarşısında artıq ikinci həftədir ki, qalibiyyət əldə edə bilməməsi Kremlin Kiyev önündə əldə edəcəyi blits-krik iddialarını puç etdi.**

## Su böhranı qapıda, ərzaq istehsalı təhlükədə: Nə etmək olar?

15



Son günlər mediada yayılan video və fotolarda ölkənin ən böyük çayı olan Kür çayının mənsəbinə yaxın hissəsində çayın demək olar ki quruduğu görünür. Ölkənin su sisteminin şah damarı olan bu çayın ekoloji faciəyə məruz qalaraq quruması həm əhalinin içməli su təminatında, həm suvarma sistemində, kənd təsərrüfatında çox ciddi problemlərin yaranmasına səbəb ola bilər.

## Araik, get, acı aqibətini düşün!

14



Qarabağdakı quldur-separatçı rejimin təmas xətlərində, daha dəqiq desək, Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərimizdə fəallaşaraq vəziyyəti gərginləşdirməyə yönəlmiş addımlarına qarşı sərt və adekvat cavablar verilməkdədir.

## Kazuyasu İşida: "Mən Qarabağda ermənilərin insanlığa yaraşmayan hərəkətlərinin şahidi oldum"




## YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

4



*Türkiyə Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində Yeni Azərbaycan Partiyasının Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci...*

4






## Tərbiyə haradan başlayır: Ailədən, yoxsa məktəbdən?

11

*Uşağı tərbiyə etmək prosesinə nə qədər tez başlasanız, bir o qədər təsirli olar. Bu prosesdə uşaqları təzyiq və məcburiyyətlə tərbiyə etməyə çalışmaqdansa, onları fərdi...*



## "Barselona" öz meydanında Qalatasaray"la bacarmadı

16

*Futbol üzrə UEFA Avropa Liqasında 1/8 final mərhələsi davam edir. İkinci oyun günündə 5 qarşılaşma keçirilib.*

# "Yeni dəhliz həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq dəhliz olacaq"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*



Rüstəm Qasimi İran Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Seyid İbrahim Rəisiyə çatdırmağı xahiş edib.

Görüşdə bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edilib. Xüsusilə nəqliyyat sahəsində bu gün imzalanacaq Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun önəmi diqqətə çatdırılıb. Bu, dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirilib və onun imzalanmasının yeni nəqliyyat yollarının açılmasına xidmət edəcəyinə əminlik ifadə olunub. Yeni dəhlizin həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq dəhliz olacağı qeyd edilib.

Söhbət zamanı Azərbaycan və İran arasında nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın həm ölkələrimiz, həm bölgə üçün, həm də beynəlxalq səviyyədə önəmi bildirilib.

# "Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələri uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Gürcüstanın ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Prezident İlham Əliyev dünən Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, enerji, ticarət sahələrində uğurla inkişaf etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın Ədliyyə nazirlikləri arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunulub.

Rati Breqadzenin ölkəmizə səfərinin və səfər çərçivəsində nazirliklər arasında imzalanan Əməkdaşlıq Memorandumunun bu sahədə əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# Yaponiya saytı Azərbaycan Prezidentinin Türkiyəyə səfərindən yazıb




Yaponiya "ajmedia.jp" saytı Azərbaycan Prezidenti İlham Əliyevin martın 10-da Ankaraya səfəri və Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanla görüşü barədə məlumat yayıb. AZƏRTAC xəbər verir ki, ingilis və yapon dillərində yayılan məlumatda Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ankarada görüşdüyü bildirilib.

Qeyd edilib ki, görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulanıb. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib. Türkiyə və Ermənistan nümayəndə heyətlərinin ilkin təmasları barədə fikir mübadiləsi aparılıb.

Həmçinin görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunulduğu, Cənub Qaz Kəmərinin uğurla fəaliyyət göstərdiyi qeyd olunub. Bu kəmər vasitəsilə Türkiyəyə və Avropaya qaz təchizatının artırılması imkanları nəzərdən keçirilib. Eyni zamanda, İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulanıb.




Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

İki qardaş ölkə arasında hərbi, hərbi-texniki, o cümlədən hərbi-təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirilib, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Məlumatda görüş zamanı Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldığı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səylərinin yüksək qiymətləndirildiyi də əksini tapıb.

# Milli azadlıq uğrunda mübarizənin başlanğıcı

**Prezident İlham Əliyev: "...Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?"**

70 illik əsarət zəncirinin tamamilə qırılıb dağılmaq üzrə olduğu, 15 müttəfiqin azadlıq mücadiləsi ilə mübarizə apardığı bir vaxtda, xüsusilə də 1990-cı ilin 19-20 yanvarında Bakının Azadlıq meydanında müstəqillik uğrunda yüzlərlə şəhidi olan ölkənin Ali Sovetinin 1991-ci il 16 yanvar tarixli qərarına günümüzün prizmasından baxdıqda həmin dövrdə bu xalqın taleyinin kimlərin əlində olması böyük təəssüf hissi doğurur. Adıçəkilən tarixdə Azərbaycan Respublikası Ali Soveti "Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələsi üzrə SSRİ referendumunun Azərbaycan Respublikasında keçirilməsinin təşkili haqqında" qərar qəbil etmişdi. Qərarda referendumun "Ümumxalq səsverməsi (SSRİ referendumu) haqqında" SSRİ Qanununun 17-ci və 18-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında 1991-ci il martın 17-də keçirilməsi qeyd olunurdu.



### SSRİ pərdəsi altında vəzifələrini qoruyan rəhbərlər

Nə üçün qəbul edilmişdi bu gülünc qərar? Axı artıq vaxt yetişmişdi. Müstəqilliyimizin bir addımlığında bu qərarı qəbul etməyin təbii ki, başqa mənası yox idi. Burada onların məqsədi yalnız tutduqları vəzifəni qorumaqdan, xalqı əzməkdən, yüzillik müstəqillik arzularını məhv etməkdən ibarət idi. Sual olunur, ölkəsində 20 Yanvar hadisəsini yaşayan bir dövlət məmuru nə qədər qəddar ola bilərdi ki, bu hadisəni törədən qurumun yenidən hakimiyyətdə qalmasına, özününsə onun əsarətinə baş əyməsinə səs verə bilərdi. Qızışdırılıb meydana salınan ermənilərin sərhədlərimizdə törətdiyi əməllər, 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan münaqişələri hər gün kəskinləşməsi hələ də bu məmurları qəflət yuxusundan ayıra bilmirdi. Çünki onlar fərqli yaşayışı, öz vəzifə səlahiyyətlərini, masalarını bütöv bir xalqın mənafeyindən, taleyindən üstün tuturdular. Bütün bunlara görə də SSRİ-nin saxlanılması onlar üçün vacib məsələ idi.

Bu barədə dövlət başçısı cənab İlham Əliyev tarixi və dəyərli fikirlərini bildirərək qeyd edib ki, Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi: "Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi".

### Ulu Öndər Heydər Əliyev Naxçıvanda referendumu ləğv etdi

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvannın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladıqları böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlətə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı. Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan ulu öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən ulu öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi heç də keçmiş Sovetlər İttifaqı rəhbərliyinin nüfuzlu simasının kiçik bir əyalətə rəhbər seçilməsi deyildi. Bu, Azərbaycanı çox yaxşı bələd olduğu ittifaqın caynağından qoparmaq üçün yolun başlanğıcı idi. Naxçıvanda yaşadığı halda Azərbaycanı idarə etmək qabiliyyətinin, xalqın müstəqillik arzusunu reallaşdırmaq bacarığının, tarixi sənədlərin qəbulu və həyata keçirilməsi əzminin nümayişi idi. Bu seçim eyni zamanda Azərbaycanın qədim diyarı Naxçıvanın erməni təcavüzündən, onun düşmən əlinə keçmək təhlükəsindən xilası idi.Təbii ki, bütün bu hadisələrin fonunda ulu öndərin yaşadığı, rəhbərlik etdiyi Naxçıvanda SSRİ-nin saxlanılmasına dair referendum keçirilə bilməzdi. Beləliklə də referendum Naxçıvanda boykot edildi. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli bəyanatında deyilir: "Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktını bütün Azərbaycan demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə Sovet Sosialist Respublikaları İttifaqının saxlanılması haqqında referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublika demokratik qüvvələrinin Azərbaycanın milli azadlıq, istiqlaliyyəti uğrunda apardığı mübarizə ilə əlaqədardır.

### Razılıq hissi ilə bildiririk ki, nəhayət Azərbaycan Respublikası ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır...

Bundan sonra Azərbaycan Respublikasının Sovet İttifaqının hakimiyyət orqanlarında iştirak etməsi yolverilməzdir. Azərbaycanın dövlət müstəqilliyini tam reallığa çevrmək üçün ümumi xalq səsverməsinin keçirilməsi vacibdir və məqsədəmüvafiq olardı. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər". Dövlətimizin başçısı bu məsələyə münasibət bildirərkən tarixi fakta əsaslanaraq demişdir: "... Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?.. Mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi".Ümummilli liderimiz Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi.

Bəli, bu qədər çətinliklə əldə olunan müstəqil dövlətimizin təməli ulu öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü götürməyənlərin təxribatlarını görəndə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, ümummilli liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi."Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən ulu öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçımızın rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ulu öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün ulu öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

*Mətanət MƏMMƏDOVA*

# YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

***Türkiyə Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım arasında görüş keçirilib.***





Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Ramil Həsən və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım görüşdə iştirak ediblər.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında ötən il imzalanmış əməkdaşlıq protokolu, bu sənəd çərçivəsində uğurla həyata keçirilən qarşılıqlı layihələr və tədbirlər, perspektivdə olan məsələlər, eləcə də iki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsinin ildönümü ərəfəsində görüləcək işlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Həmçinin Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini səmimiyyətlə salamlayan Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım Azərbaycan Prezidenti İlham Əliyevin martın 10-da Türkiyəyə işgüzar səfərinin nəticələrini yüksək dəyərləndirib, ADF-də rəsmi nümayəndə heyət ilə təmsil olunduğu üçün Yeni Azərbaycan Partiyasına minnətdarlığını ifadə edib.

Yüksək qonaqpərvərliyə, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması üçün Antalya Diplomatiya Forumunda yaradılan geniş şəraitə görə səmimi minnətdarlığını ifadə edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov ADF-nin sülh, sabitlik, inkişaf və tərəqqi yolunda beynəlxalq müzakirələr platforması kimi dəyərləndirərək, əminliklə bildirib ki, bu tədbir qısa zaman çərçivəsində geniş mənada və böyük coğrafiyada cəlbediciliyini daha da artıracaq.

Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının Sədri Rəcəb Tayyib Ərdoğanın praqmatik, uzaq strategiyaları hədəf alan lider olduğumu xatırladan YAP Sədrinin müavini Tahir Budaqov əminliklə bildirib ki, martın 18-də açılışı keçiriləcək "1915 Çanaqqala Körpüsü" qardaş ölkədə inkişaf və tərəqqi tarixi yaradan AK Partiya hakimiyyətinin ən böyük uğurlarındandır. Bu körpü Avrasiya məkanını ən etibarlı yol ötürücüsü kimi tarixə düşəcək.

Görüşdə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının Sədri, Prezident Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri məmnunluqla xatırlanıb. Partiya funksionerləri əminliklə bildiriblər ki, Liderlərimizin strateji məsələlərdə qətiyyətli və ortaq qərarları Azərbaycan və Türkiyənin bundan sonra da birgə inkişafını təmin edəcək.

Görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında qazandığı parlaq hərbi qələbə nəticəsində regionda yaranmış yeni geosiyasi vəziyyət, Türkiyənin sergilədiyi qardaşlıq mövqeyi, mövcud regional münasibətlərin perspektivləri ətrafında səmərəli fikir mübadiləsi aparılıb. İki qardaş ölkənin hakim partiyaları arasında qardaşlıq münasibətləri tarixi hadisə, dövlətçilik tariximizdə həmrəyliyin və proseslərə strateji yanaşmanın bariz nümunəsi kimi dəyərləndirilib.

# "Bu layihənin həyata keçirilməsi nəticəsində Ermənistanın Naxçıvanı blokadada saxlanması siyasətinə son qoyulacaq"



Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması tarixi hadisədir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, bu gün Prezident İlham Əliyev İranın yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən yeni kommunikasiya bağlantısının nəqliyyat və elektrik enerjisi üçün önəmli beynəlxalq dəhliz olacağı xüsusi vurğulanıb.

"Dövlətimizin başçısı bu əhəmiyyətli nəqliyyat-kommunikasiya layihəsini daim diqqət mərkəzində saxlayır, onun icrası ilə əlaqədar aidiyyəti qurumlara tapşırıqlar verilir. Bu layihənin həyata keçirilməsi nəticəsində uzun illər ərzində Ermənistanın Naxçıvanı blokadada saxlanması siyasətinə son qoyulacaq. Azərbaycanın iki regionu - Şərqi Zəngəzur ilə Naxçıvan arasında İran ərazisindən keçməklə avtomobil, dəmir yolu, enerji və rabitə bağlantısı yaradılacaq", - deyə Prezidentin köməkçisi əlavə edib.

Bildirilib ki, bununla bərabər, layihə bütövlükdə regionun nəqliyyat-kommunikasiya mənzərəsini dəyişir, Azərbaycan, İran və Türkiyəni birləşdirərək Avrasiyada avtomobil, dəmir yolu, elektrik enerjisi xətti və rəqəmsal bağlantıların daxil olduğu yeni çoxtəyinatlı dəhlizin əsasını qoyur.

Qırx dörd günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin, Prezident İlham Əliyev tərəfindən "dostluq sərhədi" adlandırılan Azərbaycan-İran sərhədinin ölkəmizə aid hissəsinə nəzarətin təmin edilməsinin bu nəqliyyat-rabitə layihəsinin həyata keçirilməsinə imkan yaratdığını vurğulayan Hikmət Hacıyev deyib: "Anlaşma Memorandumunun imzalanması Azərbaycan ilə İran arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinə təsadüf edir. Bu layihənin gerçəkləşməsində Azərbaycan ilə İran arasında 30 il ərzində qurulmuş dostluq, qarşılıqlı etimad və yaxın qonşuluq münasibətləri mühüm rol oynayır.

Əminik ki, yeni dəhliz regional əməkdaşlıq, inkişaf və region xalqlarının rifahı, iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün əlverişli imkanlar açacaq".

# "YAP bu vəzifəsinin öhdəsindən layiqincə gələ bildi"

"Ölkəmizdə əsas aparıcı siyasi qüvvə rolunu oynayan, Yeni Azərbaycan Partiyasının ideyaları və siyasəti daim xalq tərəfindən dəstəklənir. Hakimiyyətdə olduğu müddətdə partiyamız uğurlu və şərəfli yol keçib". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Onun sözlərinə görə, xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi və inkişafı şərtləndirən əsas amildir: "1993-cü ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt - sabitlik tam bərqərar olub. Tam əminliklə deyə bilərik ki, son illər apardığımız siyasət özünü tam doğruldub, Azərbaycanda sabitlik mövcuddur. Partiyamızın sədri cənab İlham Əliyevin həyata keçirdiyi islahatların kökündə dayanan niyyətlərdən biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasıdır. YAP-ın ən böyük uğurlarından biri beynəlxalq aləmdə ölkəmizin mövqeyinin gücləndirilməsini təmin etmək olub. Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınırsa, bu partiyanın nailiyyətidir.

Həmçinin partiyanın hakimiyyəti dövründə hərbi sahədə çoxsaylı islahatlar aparılıb ki, bu da öz bəhrəsini verdi. Bu islahatların yekun nəticəsidir ki, 44 günə şanlı qələbə qazanıldı. Beləliklə, YAP-ın apardığı siyasət özünü tam doğrultdu. Vətən müharibəsi əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, dünya birlikləri arasında nüfuzumuzun artmasına gətirib çıxaracaq.

Ölkəmizin gələcək inkişafı ilə bağlı bütün sahələrdə, ictimai xidmət sahələrində, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində, bütün istiqamətlər üzrə aydın proqramlar həyata keçirilir. Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək".

Deputat sözlərinə belə davam edib: "Hazırda YAP-ın hakimiyyəti Azərbaycanın inkişafına, tərəqqisinə, sabitliyinə, əmin-amanlığına təminat verən əsas faktordur. YAP yarananda qarşısına qoyduğu məqsədlər ümumiləşmiş şəkildə irəliyə sürdüyü belə idi - "Yeni, müstəqil Azərbaycan uğrunda!". Yəqin ki, YAP yaranarkən o zaman üçün partiyanın qarşısında duran vəzifələri bundan daha dəqiq ifadə edən şüarı ola bilməzdi. Çünki o zaman Azərbaycanın dövlət müstəqilliyi böyük təhlükə qarşısında idi. Bu təhlükəni aradan qaldırmağa xalqın böyük ehtiyacı vardı. Qarşıda Azərbaycanın dövlətçilik ənənələrinin bərpası və yeni müstəqil Azərbaycan dövlətinin yaranması kimi tarixi missiya dururdu. Buna görə də YAP yaranarkən öz qarşısına bu vəzifəni qoymuşdu. Qürur hissi ilə qeyd edə bilərik ki, YAP bu vəzifəsinin öhdəsindən layiqincə gələ bildi. Bir sözlə ulu öndərin dediyi kimi YAP partiyası zərurətdən yaranmışdı və bütün tarixi missiyalarını ləyaqətlə yerinə yetirdi və bundan sonra da inkişaf, tərəqqi yolunu seçəcəkdir".

***Ayşən Vəli***

# Azərbaycan-İran əməkdaşlığı: potensial və perspektivlər

TƏHLİL

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsi qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətlərinin əsas təməlini təşkil edir. Dostluq əlaqələrimizin bugünkü yüksək səviyyəsi otuz illik dövrdə ölkələrimizin birgə fəaliyyətinin nəticəsidir. SİA xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Prezident Seyid İbrahim Rəisiyə təbrikində yer alıb.***

Dövlətimizin başçısı qeyd edib ki, bu illər ərzində çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, əldə edilən razılaşmalar və həyata keçirilən birgə layihələr siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımızın dinamik inkişafında mühüm rol oynayıb.

Təbrikdə daha sonra deyilir: "Mən Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyimizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu gün qarşılıqlı faydalı əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır. Şübhəsiz, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan-İran dövlət sərhədinin bərpası müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmağa, nəqliyyat-kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır. Biz ölkənizi təmsil edən şirkətlərin də yaxın gələcəkdə bu prosesdə iştirakını görməkdən məmnun olardıq".

Prezident İlham Əliyev məktubunda xalqlarımızın mənafelərinə və ölkələrimizin maraqlarına xidmət edən Azərbaycan-İran münasibətləri bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə inamını ifadə edib.

İranla Azərbaycan münasibətləri müstəqilliyimizin ilk illərindən başlayıb. Müəyyən vaxtlarda bəzi siyasi anlaşılmazlıqlar olsa da, 2 ölkənin əməkdaşlığı ümumən çox yaxın qonşuluq və dostluq münasibətləri üzərində bərqərar olub.

Dünyanın və regionun güclü dövlətlərindən olan İranla daha yaxın dostluq və əməkdaşlıq bizim dövlət maraqlarımız və milli mənafelərimiz üçün son dərəcə vacibdir. Eynilə də İran üçün bu, çox vacibdir.

Azərbaycan hakimiyyəti ən yüksək səviyyələrdə İrana qarşı heç bir cəbhədə yer almayacağını, cənub qonşusunun zərərinə olan heç bir addım atmayacağını bəyan edib. Həm Prezident Heydər Əliyev, həm də Prezident İlham Əliyev bunu dəfələrlə açıq bəyan ediblər və bu prinsipə də əməl ediblər.

İranla Azərbaycanı ayıran dəyərlərdən, birləşdirən dəyərlər daha çoxdur. İran azərbaycanlıların dünyadakı 2 ölkəsindən biridir. Bu ölkələrin xalqları həm dini cəhətdən eynidir, həm də mədəniyyət cəhətdən. İqtisadi sahələrdə də geniş əməkdaşlıqlar var lakin bu potensialdan xeyli aşağıdır. İran böyük sənaye və aqrar istehsal ölkəsidir.

İran Azərbaycanda bir sıra zavodların, fabriklərin açılmasını təşkil edib, avtomobil istehsalından tutmuş dırman istehsalına qədər. Eyni zamanda, dərman, ərzaq və qeyri-ərzaq gündəlik tələbat məhsularını İrandan çox ucuz qiymətə əldə etmək olar.

Azərbayan üçün isə İran çox nəhəng bir bazardır. Hazırda sanksiyalar tətbiq olundğundan iqtisadi-ticari əlaqələrdə çətinlik yaşayan İrana müxtəlif məhsulların ixracını təşkil etmək olar. Həm öz məhsullarımızı həm də re-eskport məhsullarını.

İşğaldan azad edilmiş Qarabağın bərpasında İran şirkətlərinin də fəal olacağı şübhəsizdir. İran bu bölgəyə təkcə infrastruktutun bərpası üçün deyil, həm də istehsal müəssisələrinin investisiyalar yönəldə bilər. Məsələn, dünyaca məşhur İran xalçalarının istehsal fabrikindən tutmuş, ərazidə böyük xammal potensialı olan dərman fabrikinə qədər.



***Prezident: Azərbaycan ilə İran arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər var***

Bundan başqa üçlük və altılıq formatlarında əməkdaşlığın da böyük perspektivləri var. Xüsusən də enerji və nəqliyyat dəhlizləri cəhətdən. Şimal-Cənub nəqliyyat dəhlizi vasitəilə İran bizim ərazimizdən keçmiş SSRİ respublikalarına və Avropaya çıxış əldə edir. Biz isə İran vasitəilə Yaxın Şərq ölkələrinə. Böyük İpək yolunun əsas qollarından biri İrandan keçir. Bu yolla biz cənubi və cənub-şərqi Asiya ölkələrinə çıxış əldə edirik.

Tezliklə bərpa olunacaq Zəngəzur dəhlizi də İranla bağlıdır. Belə ki, hələ SSRİ vaxtından Culfadan İrana dəmiryolu xətti var. Bu dəhlizlə region ölkələri ilə geniş ticarət əlqələri qurmaq və xeyli ölkəyə birbaşa çıxış əldə edir.

Eyni zamanda İran öz neft və qazını Azərbaycanın mövcud boru xətləri vasitəsilə vasitəsilə qərb ölkələrinə çıxara bilər. Belə ki, Ukrayna böhranı ilə bağlı Avropanın təbii qaz və neft təchizatında yaranmış çətin vəziyyətdə İran neftqazına da ehtiyac çoxalıb.

İki ölkə turizm sahəsində də əməkaşlığı genişləndirmək imkanlarına malikdir. Mədəni əlaqələri də həmçinin. Son vaxtlar bu sahələrdə də irəliləyişlər var. Pandemiya ilə bağlı müvəqqəti problemlərin yaranmasına baxmayaraq.

Göründüyü kimi, Azərbaycan və İran arasında əməkdaşlığın sahələri və perspektivi çox böyüdür və hər iki ölkə üçün son dərəcə faydalıdır. Son vaxtlar bu istiqamətdə xeyli işlər görülüb və bu işlərin davam edəcəyi şübhəsizdir.

***Elçin Bayramlı***

# Azərbaycanda dövlət çevrilişinə cəhd: mart hadisələri



***Azərbaycan dövlətçiliyinə və müstəqilliyimizə qarşı yönəlmiş dövlət çevrilişi cəhdindən 27 il ötür. 1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.***

Xatırlatmaq yerinə düşər ki, Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın tədricən beynəlxalq aləmdə mövqelərini möhkəmləndirməsi hakimiyyəti ələ keçirmək istəyən bəzi qüvvələrin qısqanclığına səbəb olmuşdu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkəmizin dünya miqyasındakı nüfuzu daha da artdı. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı. Ulu Öndər Heydər Əliyev dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirmiş, Azərbaycan həqiqətlərini, dövlətin mövqeyini dünyaya çatdırmış, bununla da, ölkəmizə diqqət və maraq gücləndirmişdir. Azərbaycanın siyasi-iqtisadi əlaqələri genişlənmiş, mühüm müqavilə və sazişlər imzalanmışdır. Qısa bir zamanda, Ulu Öndərin müdrik siyasəti nəticəsində, ölkədə ictimai-siyasi sabitlik yaradılmış, qanunçuluğun bərqərar edilməsi istiqamətində ciddi addımlar atılmışdır.

Azərbaycanda dövlət çevrilişinə cəhd mart hadisələri 1995-ci ilin mart ayının 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar nöqtəsində - Qazaxda və Ağstafada başladı. Həmin gün "OMON"-un Ağstafa və Qazax rayonunda yerləşən bölməsi tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi. Hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verdi. Lakin mart ayının 15-də Azərbaycan Ordusunun bölmələri tərəfindən qiyam yatırıldı.

16-17 mart tarixində isə Xüsusi Təyinatlı Polis Dəstəsinin komandiri polkovnik Rövşən Cavadovun rəhbərliyi ilə Bakıda çevrilişə cəhd göstərmək istəyirlər. Hələ martın 14-də daxili işlər naziri "OMON"-un buraxılması və onun üzvlərinin 3 gün ərzində silahı təhvil verməsi barədə əmr imzalamışdı. Əmrə görə, silahı könüllü təhvil verənlər törətdikləri əməllərə görə cəzalandırılmayacaq və DİN sistemində müvafiq işlə təmin ediləcəkdilər. Bundan 2 gün sonra, yeni silahlı qarşıdurma ərəfəsində Ulu Öndər Heydər Əliyev "OMON"-çuları bağışlanmaq imkanı yaradan xüsusi Fərman imzalayır. Lakin XTPD-nin başçısı Rövşən Cavadov Xətai rayonunun o vaxtkı prokuroru, qardaşı Mahir Cavadovla birlikdə qeyri-qanuni silahlı dəstələri ilə dövlət başçısı qarşısında müəyyən şərtlər qoydular.

Onu da bildirək ki, Ümummilli Liderimiz, Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla həmrəy olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdini pisləyərək, qeyri-qanuni silahlı qruplaşmalara qanunsuz əməllərindən əl çəkmələri barədə dəfələrlə xəbərdarlıq etmişdi, onları əfv edəcəyini bildirmişdi. Hətta Cavadov qardaşlarının atası Bəxtiyar Cavadovla da söhbət aparmış, ona oğlanlarını vətəndaş müharibəsi və silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etmişdi.

Dövlət çevrilişinə cəhd edən qeyri-qanuni silahlı birləşmələrin rəhbəri Rövşən Cavadov və onun ətrafı hakimiyyəti silah gücünə, qeyri-konstitusion yolla ələ keçirməkdə tam israrlı idi. Onlar ağsaqqalları, ziyalıları, hətta yaşlı atalarını da dinləmədilər. R.Cavadovun böyük iddiası vardı: dövlət başçısı olmaq. Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı. Xalq kütləsi bütün bu hoqqabazlıqlara, xəyanətkar və cinayətkar əməllərə son qoyulmasını tələb edirdi. R.Cavadovun adamlarının, eyni zamanda, proseslərdən faydalanmaq arzusuna düşən dağıdıcı müxalifət partiyalarının nümayəndələrinin xalq arasında apardığı təbliğat işləri isə, heç bir nəticə vermirdi. Əksinə, belələri ictimaiyyətin qınağına tuş gəlir və ağır ifadələrlə təhqir olunmaqdan belə yan keçə bilmirdilər.

1995-ci il martın 16-dan 17-nə keçən gecə isə paytaxtın 8-ci kilometr qəsəbəsindəki "OMON" - çuların qərargahı yaxınlığında başlanan atışmada dünənədək cəbhə bölgəsində, erməni təcavüzkarları ilə savaşda səngər yoldaşı olmuş döyüşçülər üz-üzə dayandılar. Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal etdiyi bir vaxtda, Azərbaycanın paytaxtında bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçirmək üçün dövlətçiliyimizə qəsd edirdi. Onların hakimiyyət hərisliyi nəticəsində, qardaş qanı töküldü. Cavadov qardaşlarının hakimiyyəti qeyri - konstitusion yolla ələ keçirmək cəhdləri 22 hərbçi, 7 mülki şəxs, 1 polis və 8 XTPD əməkdaşının ölümünə səbəb olmuşdu. Hadisə nəticəsində, 105 nəfər yaralanmışdı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etmişdi.

Belə ağır zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir.

Ulu Öndər Heydər Əliyevin dövlət çevrilişlərinin qarşısını qətiyyətlə alması Azərbaycan xalqının sabaha, gələcəyə ümidini daha da artırdı. Ulu Öndər Heydər Əliyev düşmənlərimiz tərfindən təşkil olunmuş dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Bu hadisələrdən keçən 27 ildə Azərbaycan müstəqil dövlət kimi daha da inkişaf etdi, əlaqələri genişləndi və mövqeləri möhkəmləndi. Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsi, xalqına, Vətəninə, millətinə olan sonsuz məhəbbəti, qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik qorunub-saxlanıldı. Bu gün ölkəmiz Cənubi Qafqaz regionun lider dövlətinə və güc mərkəzinə çevrilib.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır, dövlətimiz durmadan yüksəlir, inkişaf edir və yeni uğurlar qazanır. Dövlət başçısının uğurlu daxili və xarici siyasəti, müasir yanaşmalar, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrində yeni nailiyyətlərin qazanılmasına səbəb olub. Dövlət başçısının həyata keçirdiyi güclü ordu strategiyasının məntiqi nəticəsi olaraq, Azərbaycan Ordusu hərb tarixində yeni səhifə olan 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünü dünyaya göstərə bildi. Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Növbədənkənar seçkilərdən sonra Milli Məclis daha işlək bir orqana çevrilib"



"2018-ci ildə keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə yenidən seçilən Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən islahatlar prosesinin daha da dərinləşəcəyi haqqında anons vermişdi. İslahatar prosesi dövlətin hakimiyyətinin bütün qollarını əhatə etməyə başladı. Prezident Administrasiyasında və Nazirlər Kabinetində struktur və kadr islahatları aparılaraq yaşlı insanlar daha gənc və bacarıqlı kadrlarla əvəz olundu. Mərkəzi və Yerli İcra hakimiyyəti strukturlarında yenilənmə baş verdi. Məhkəmə hakimiyyətində islahatlara başlanıldı."

Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov yap.org.az-a verdiyi müsahibəsində bəyan edib. O qeyd edib ki, Məhkəmələrdə şəffaflığının təmin edilməsi üçün elektron məhkəmə modeli tətbiq olundu. Hakimiyyətin bu iki qolunda həyata keçirilən islahatlar prosesindən hakimiyyətin digər qolu olan Milli Məclis kənarda qala bilməzdi. Ona görə də parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar Milli Məclisin buraxılmasını və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı məsələ qaldırdı: "Digər deputatlar da bu məsələni dəstəklədilər və ölkədə icra olunan islahatlara qoşulmaq üçün Milli Məclis buraxılaraq növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı ölkə başçısına müraciət ünvanlandı. Ölkə başçısı Milli Məclisin müraciətini yüksək dəyərləndirdi və ölkəmizdə növbədənkənar parlament seçkiləri təyin olundu. Beləliklə 2020-ci ilin fevralın 9-da parlamentə növbədənkənar seçkilər keçirilərək çoxpartiyalı yeni parlament yenidən formalaşdı. Növbədənkənar seçkilərdən sonra parlamentin tərkibi gəncləşdi. Azərbaycan Milli Məclisin tarixində ilk dəfə parlamentin sədri qadın seçildi. Milli Məclisin rəhbərliyində və bütün komitələrin rəhbərliyində parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri təyin olundu. Milli Məclisin Administrasiyasında struktur islahatları aparıldı. Beləliklə növbədənkənar seçkilərdən sonra müasir dövrün çağırışlarına cavab verən prarlament formalaşaraq fəaliyyətə başladı.

2020-ci ilin əvvəlində yenidən formalaşan Milli Məclis daha çevik, operativ və zamanın nəbzini tutaraq öz fəaliyyətini həyata keçirməyə başladı. Artıq yenidən formalaşmış parlamentin fəaliyyətinin iki ili başa çatmışdır. Bu iki ildə Milli Məclis daha işlək bir orqana çevrildi. Yeni qanunlar qəbul olundu. Cəmiyyət üçün qəbul olunmuş belə vacib qanunların arasında Ələt Azad iqtisadi Zonasını haqqında qanun, Vergi Məcəlləsinin qəbul olunması, Təhsil haqqında qanun, Dini etiqad haqqında qanunu və s. missal göstərmək olar. Yeni parlamentin qəbul etdiyi yeni qanunlar və mövcud qanunlarda həyata keçirilən dəyişikliklər Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən islahatlar prosesini sürətləndirərək daha əməlli nəticələrə nail olmağımıza yol açmış oldu."

## "Böyük Britaniya Azərbaycanın sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da belə olacaq"

***"Azərbaycanla əməkdaşlıq bütün tərəfdaş ölkələrin marağındadır. Ölkəmizlə diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar dövlət başçımıza ünvanlanan məktublarda da bu məqam xüsusi vurğulanır. Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edərkən aparılan müzakirələrdə Azərbaycanın enerji və tranzit ölkəsi, etibarlı tərəfdaş kimi rolu xüsusi qeyd olunur". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.***



Onun sözlərinə görə, Böyük Britaniyanın baş naziri Boris Consonun məktubunda da Azərbaycanla əlaqələrin əhəmiyyəti vurğulanır: "Böyük Britaniya sərmayələrinin Azərbaycanın enerji sektoruna yatırıldığı ilk vaxtlardan etibarən bu əlaqələr genişlənib və çiçəklənib. Böyük Britaniya Azərbaycanın sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da belə olacaq. Avropanın iqtisadi lokomotivi olan Almaniya ilə də əlaqələrin inkişafı üçün perspektivlər mövcuddur. Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə Frank-Valter Ştaynmayerə ünvanladığı təbrik məktubundan da aydın görünür ki, tərəflər dövlətlərarası münasibətləri və səmərəli əməkdaşlığı istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində bundan sonra da inkişaf etdirmək və genişləndirmək niyyətindədir".

***Arzu Qurbanzadə***

# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlıq, birlik səfəri

## *Bu qardaşlıq bölgəyə sülh və sabitlik gətirir*



***Bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. Çünki bu birlik 14 yanvar 1992-ci ildən bu günə kimi, düz 30 ildir ki, "Bir millət, iki dövlət", Azərbaycan -Türkiyə dövlətlər arasında diplomatik münasibətləri qurulub. Bu günün reallığı Azərbaycan-Türkiyə birliyi və qardaşlığının əbədi və sarsılmaz olduğunu təsdiqləyir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir. Möhkəm və sağlam təməllər üzərində qurulmuş Türkiyə-Azərbaycan münasibətləri bütün sahələrdə davamlı şəkildə inkişaf edir.***

TƏHLİL

Elə Prezident İlham Əliyevin martın 10-da Türkiyəyə səfəri bir çox aspektlərdən xüsusi əhəmiyyət daşıyır. İki ölkə lideri arasında davam edən görüşdə müttəfiqlik münasibətləri çərçivəsində bütün məsələləri ətraflı müzakirə ediblər. Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulanıb. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi də aparılıb. Həmçinin, Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edilib, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparılıb. Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunulub, bu xüsusda Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olunub, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edilib, həmçinin, İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulanıb.

### "Bir millət, iki dövlət" kəlamı, sadəcə, deyim deyil

Həmçinin, söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirilib, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Eyni zamanda, bütün dünyanın diqqətində olan Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparılıb, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirilib. Bir sözlə, həmişə olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin növbəti səfəri də bir daha sübut edir ki, ”Bir millət, iki dövlət” kəlamı, sadəcə, deyim deyil, siyasi, iqtisadi, mədəni, mənəvi, hərbi, geostrateji mahiyyəti ilə ötən dövr ərzində öz təsdiqini tapan əməkdaşlıq formatıdır. Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər öncə Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı ”Şərq Tərəfdaşlığı” sammitində ”dərə xəlvət, tülkü bəy” yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev ”Türkiyə burda yoxsa da, mən burdayam və sizin cavabınızı verəcəyəm”, söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda, bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ”Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır”, ”Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq”, mövqeyi ilə Türk birliyi mesajını verdi dünyaya.

Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə, dövlət başçılarının bir-birinə ”qardaşım” deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir. Və Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir.

### BU SƏFƏR TÜRKİYƏ XALQINA, HƏM DƏ BÜTÜN DÜNYAYA BİR MESAJ: “BİZ BİR YERDƏYİK. BİZİM BİRLİYİMİZ SARSILMAZDIR VƏ ƏBƏDİDİR”

Yaşanan reallıqlar bir daha onu göstərir ki, Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır və bu, bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında dediyi fikri bir daha demək yerinə düşər: ”Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm”.

Budur, ”Bir millət, iki dövlət”in qardaşlığı, həmrəyliyi. Bu gün öz liderlərinin sayəsində hər iki ölkə bütün dünyada böyük uğurlar əldə edən, prinsipial siyasət yürüdən güc kimi tanınırlar. Artıq şübhə yoxdur ki, iki xalq və dövlət arasındakı qardaşlıq daimidir və yaxın vaxtlarda biz hər iki ölkənin növbəti uğurlarına şahidlik edəcəyik. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar. Çünki hər iki ölkə liderlərinin səfərləri maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlıq birlik səfəridir.

***RƏFİQƏ KAMALQIZI***

# YAP-30: Yeni proqramla möhtəşəm zirvələrə doğru!

## *İlham Əliyev: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"*

***Düz 30 il öncə tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".***




Təhlil

Ulu Öndər Heydər Əliyev ideologiyasının tərənnümü və tarixi reallığı əsasında yaranan və artıq 30-cu ildönümünə doğru inamla addımlayan YAP bu gün də öz uğur və tərəqqi sözünü deməkdədir. Məhz Azərbaycan xalqının və dövlətinin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, xalqımızın həmrəyliyi və dönməzliyi sayəsində, ölkəmizin ən çətin məqamlarında yaranan YAP bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir. Və bu gün partiyamızın 30 ilini Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün ikinci ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da, bu gün Azərbayacanın son illərdə qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmçinin, 30 ilə yaxın şərəfli yolda Azərbayacanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də VII qurultayının keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay birliyimizin, həmrəyliyimizin nümayişi olmaqla, həm də bu 30 illər ərzində Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə doğru getdiyinin bir daha əyani şəkildə sübutu idi.

### YAP-IN VII QURULTAYI - YENİ HƏDƏFLƏRƏ, VƏZİFƏLƏRƏ DOĞRU

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.

Məhz bundan irəli gələrək, bir il öncə 2021-ci il martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayı da ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisə kimi yadda qalıb. Bu gün Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi genişmiqyaslı islahatlar bütün sahələri, o cümlədən siyasi sferanı da əhatə edir. Dövlətimizin başçısı, partiyanın Sədri İlham Əliyevin söylədiyi kimi, Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin əsas səbəbi ölkədə və regionda yaranmış yeni reallıqlardır. Artıq bir neçə ildir ki, ölkəmizdə həyata keçirilən islahatlar siyasi partiyaların da fəaliyyətinə öz müsbət təsirini göstərir. Yeni Azərbaycan Partiyanın VII Qurultayının keçirilməsi və qurultayda yeni Nizamnamənin qəbul olunması, müəyyən yeniliklərin edilməsi, struktur dəyişikliyi siyasi islahatların tərkib hissəsi kimi dəyərləndirilə bilər. Eyni zamanda, qurultaydan keçən bir il ərzində YAP bir sıra ölkələrin siyasi partiyaları ilə əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atıb. Xüsusilə, Azərbaycan və Türkiyənin iqtidar partiyaları arasında uzun illər davam edən əməkdaşlıq 2021-ci ildə yeni mərhələyə qədəm qoydu. Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında ötən il iyun ayının 2-də imzalanmış əməkdaşlığa dair niyyət protokolu xüsusi əhəmiyyət kəsb edir. Hər iki partiyanın birgə təşkilatçılığı ilə ötən il videoformatda konfranslar keçirilib, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri baş tutub. Partiya liderləri arasında olan dostluq münasibətləri AK Parti və YAP arasında əlaqələrin daha da yaxınlaşmasına, uğurlu təcrübə mübadiləsinə təkan verəcəyinə əminlik yaradır. Dostluq və qardaşlıq əlaqələri ölkələrimiz arasında, digər sahələrdə olduğu kimi, hakim siyasi partiyaların münasibətlərində də dinamik şəkildə inkişaf edir.

Həmçinin, YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürdü. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var".

### PREZİDENT İLHAM ƏLİYEVİN APARDIĞI SİYASƏTİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, EYNİ ZAMANDA, ONUN SƏDRİ OLDUĞU PARTİYANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ DEMƏKDİR

Bəli, bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri, eyni zamanda, onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır. Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.

YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı. 30 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu, son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir.

Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

## YENİ AZƏRBAYCAN PARTİYASININ VII QURULTAYININ KEÇİRİLMƏSİ HƏM DƏ PREZİDENT İLHAM ƏLİYEVİN İSLAHATLAR SİYASƏTİNİN DAVAMI OLDU

Qurultayda yeni hədəfləri müəyyən edən Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən ölkədir. Heç kim Azərbaycanla diktə dili ilə danışa bilməz. Azərbaycan indiyədək heç kimə hesabat verməyib, bundan sonra da bu siyasət davam etdiriləcək. Və VII qurultayının keçirilməsi də Prezident İlham Əliyevin islahatlar siyasətinin davamı oldu. Çünki 2018-ci il prezident və 2020-ci il parlament seçkilərindən, xüsusən də 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratmışdı. Yaranmış yeni reallıqlar hakim partiyada islahatların aparılması və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini ortaya çıxarmışdı. Beləliklə, yeni idarəetmə modelini tətbiq etməyin zamanı yetişmişdi. Bu baxımdan hesab etmək olar ki, VII qurultayda qəbul olunmuş qərarlar hakim partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü, milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi. Partiyada birinci müavin postunun təsis olunması və bu postun ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya həvalə olunması idarəetmə prosesinin təkmilləşdirilməsinə səbəb oldu.

Beləliklə, Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul olunmuş qərarlar partiyanın fəaliyyətində keyfiyyət etibarı ilə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Belə ki, partiyanın Nizamnaməsi tələb və çağırışlarına uyğunlaşdırıldı. Yeni Nizamnaməyə əsasən Qurultay, Partiyanın Sədri, İdarə Heyəti və Təftiş Komissiyası partiyanın orqanları qismində müəyyən edildi. Partiya Sədrinin birinci müavini vəzifəsi təsis edildi, həmçinin Partiyanın strukturuna Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatın, yerli təşkilatların və onların aparatlarının daxil olduğu təsbit edildi. VII qurultayda İdarə Heyəti, Təftiş Komissiyası və Veteranlar Şurasının say tərkibi müəyyən edildi, İdarə Heyəti və Təftiş Komissiyasının üzvləri, Veteranlar Şurasının üzvləri, sədri və sədr müavini seçildi. Qurultayda Partiyanın yeni Proqramının hazırlanması və qəbulu barədə qərar qəbul olundu.

Hazırda YAP-da yeni kadr siyasətinin əsas meyarları peşəkarlıq, dövlətçilik və vətənpərvərlikdir. 2021-ci il sentyabr 10-da və 2022-ci ilin yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclaslarında YAP-ın 76 yerli təşkilatının sədrləri vəzifəyə təyin ediləndə də bu meyarlar əsas götürülmüşdür. Bu kadr siyasəti zamanı 76 yerli təşkilatın 48-də yeni sədrlər təyin olundu. Sədrlərin orta yaş həddi isə 59-dan 50-yə endi.

Ötən bir ildə YAP-ın fəliyyətində diqqət çəkən məqamlardan biri də partiyanın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsidir ki, bu da ölkənin xarici siyasətinin davamıdır. Azərbaycan və Türkiyənin iqtidar partiyaları arasında uzun illər davam edən əməkdaşlıq 2021-ci ildə yeni mərhələyə qədəm qoydu. Belə ki, ötən il iyun ayının 2-də iki ölkənin hakim partiyaları arasında əməkdaşlığa dair niyyət protokolu imzalandı. Hər iki partiyanın birgə təşkilatçılığı ilə videoformatda konfranslar keçirildi, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri baş tutdu. 2021-ci il dekabrın 3-də isə Kiyev şəhərində Yeni Azərbaycan Partiyası ilə Ukraynanın hakim "Xalqın Xidmətçisi" Partiyası arasında da əməkdaşlıq memorandumu imzalandı. Ötən il YAP Çin Kommunist Partiyasının videoformatda təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak etdi, həmçinin, oktyabrın 29-da iki partiya arasında videoformatda keçirilən görüş zamanı əməkdaşlığın yeni perspektivləri müzakirə olundu. Bundan başqa, YAP-ın Rusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Yaponiya, Vyetnam, Laos və Kambocanın da hakim partiyaları ilə əlaqələri mövcuddur. YAP Asiya regionunda 350-dən artıq siyasi partiyanı əhatə edən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin üzvü kimi qurumun tədbirlərində fəal iştirak edir, həmçinin, dünyanın 100-ə yaxın siyasi partiyasını özündə birləşdirən Mərkəzçi Demokrat İnternasionalının (İDC-CDİ) müşahidəçi üzvü olaraq fəaliyyətini davam etdirir. Bütün bunlar onu deməyə əsas verir ki, hakim partiya ildən-ilə öz beynəlxalq əlaqələrini daha da genişləndirir. Bu da öz növbəsində xarici siyasət sahəsində Azərbaycanın nüfuzunun güclənməsi və uğurlarının artmasına təsirsiz ötüşmür.

YAP-ın VII qurultayında qəbul edilən qərarlar Azərbaycan gəncliyinin ölkə və cəmiyyət həyatına daxil olan mütərəqqi yeniliklərin əsas mərkəzi qüvvəsi rolunda çıxış etməsi tendensiyasını da gücləndirdi. Milli dövlətçilik düşüncəmizdə gəncliyə xitab çox önəmli məsələdir. Azərbaycan gəncliyi tarix boyu ona olan ümidləri doğruldub. Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Bu gün YAP üzvü olan, partiyada məsul vəzifələrdə çalışan gənclərimiz qarşısında da böyük bir vəzifə var. YAP sədri, Prezident İlham Əliyevin tarixdə ən qüdrətli mərhələsinə gətirib çıxardığı müstəqil dövlətimizin daha böyük nailiyyətlər qazanması üçün çalışmaq, onu böyük strateji hədəflərinə yetirmək gəncliyimizin ali vəzifəsidir.

Beləliklə, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan YAP-ın VII qurultayından ötən dövr ərzində həyata keçirilən islahatlar fonunda ölkədə yeni siyasi mühitin formalaşması, siyasi və milli həmrəyliyin daha da güclənməsi, hakim partiyanın fəaliyyətində, idarəetmədə yeni keyfiyyət dəyişiklikləri müşahidə olunur. Həmçinin həyata keçirilən islahatlar partiyanın fəaliyyətində çeviklik və səmərəliliyin artmasına səbəb olub. Partiyamızın Sədri cənab İlham Əliyevin dediyi kimi, "indi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana eyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir".

Bir sözlə, Yeni Azərbaycan Partiyasının VII Qurultayından keçən bir il ərzində Partiyamız ciddi irəliləyişlərə nail olub. Əminik ki, Partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq bundan sonra da ölkəmizdə gedən siyasi proseslərin mərkəzində olacaq, məhz bunun nəticəsində də yeni-yeni uğurlara, nailiyyətlərə imza atacaqdır.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

# Fransa portalı: Avropa rəsmi Bakıdan kömək istəyir




**Fransanın "Causeur" portalında "Ukraynada müharibə: Avropa Bakıdan kömək istəyir" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Avropada bugünkü vəziyyətə toxunulur, Avropanın üzləşdiyi çətinliklərdən söz açılır. Belə bir vəziyyətdə Avropanın rəsmi Bakının yardımına ehtiyac duyduğu qeyd edilir.**

**Ölkəmizin 30 il ərzində üzləşdiyi işğaldan da danışılan yazıda Azərbaycan rəhbərliyinin müdrik siyasəti sayəsində ölkənin çətin iqtisadi vəziyyətdən çıxmasından, tarazlaşdırılmış xarici siyasətindən bəhs olunur. Ölkəmizin müəllifi olduğu və bu gün Avropanın enerji təhlükəsizliyinin təminatında misilsiz rolu olan, böyük əhəmiyyət daşıyan beynəlxalq layihələrə, o cümlədən neft və qaz kəmərlərinə xüsusi diqqət çəkilir.**

**Vurğulanır ki, müstəqil iqtisadi inkişafa nail olan Azərbaycanın bu gün beynəlxalq arenada xüsusi yeri var. "Bəzi məlumatlara görə, Azərbaycan Prezidenti İlham Əliyevin telefonu susmur. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, İtaliya Respublikası Nazirlər Şurasının Sədri Mario Draqi, NATO-nun Baş katibi Yens Stoltenberq, Fransa Prezidenti Emmanuel Makron son günlər Prezident İlham Əliyevə tez-tez zəng edirlər", - deyə müəllif qeyd edir.**

# "Şuşa ili" getdikcə aktuallığını, əhəmiyyətini artırır

***"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan edib. Bu, heç də təsadüfi bir qərar deyil". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Kərimli bildirib.***

Onun sözlərinə görə, birincisi Qarabağın simvolu, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın işğaldan azad olunması Azərbaycanda böyük mənəvi ruh yüksəkliyinə səbəb oldu:

"İkincisi Şuşanın 270 yaşı tamam olur. Əsl Azərbaycan şəhəri kimi bu şəhərin əsası Pənahəli xan tərəfindən qoyulub. Bu, bir daha dünyaya xatırladır ki, Şuşa Azərbaycan şəhəridir.




Üçüncüsü Qarabağda aparılan bütün quruculuq işləri ya Şuşada tamamlanır, ya da Şuşadan başlayır. Şuşa bir növ həm də rəmzi mənada artıq Qarabağın da mərkəzinə çevrilib. Göründüyü kimi, Şuşanın əhəmiyyəti getdikcə artır. Türkiyə ilə birlikdə məhz Şuşa şəhərində Azərbaycan-Türkiyə bəyannaməsi bağlanıb. Bu da ömürlük ittifaq səviyyəsində olan bir sənəddir. Təsadüfi deyil ki, cənab Prezident Türkiyədəki səfərində Ərdoğanla birlikdə, eyni zamanda, Şuşa bəyannaməsinin də yerinə yetirilməsi və genişləndirilməsi məsələlərini müzakirə edib. Qeyd etmək istəyirəm ki, muğam müsabiqəsinin finalının Şuşa şəhərində keçiriləcəyi haqqında məlumat aldıq. Biz Milli Məclisin komitə iclaslarının birini də artıq Şuşa şəhərində keçirmək qərarına gəlmişik. "Şuşa ili" getdikcə aktuallığını, əhəmiyyətini artırır. Artıq hər kəs Şuşanın adını yaxşı bilir. Həm də Şuşa qəhrəmanlıq şəhəridir. Biz hər birimiz bu ilin yüksək səviyyədə keçirilməsinə çalışmalıyıq".

***Səbinə Hüseynli***

# Ermənistanın yeni bir xəyanəti

Rusiya ilə Ukrayna arasında müharibənin getdiyi, gərginliyin gündən-günə artığı bir vaxtda Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya ilə əksmövqedə dayanan bir ölkəyə - Fransaya səfər etməsi yeni bir xəyanətin ifadəsidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahi Rzayev deyib.



Komitə sədri qeyd edib ki, əslində bu gün daim Rusiyadan yardım alan, bu dövlətin vassalı kimi tanınan Ermənistan çətin gündə onu himayə edənin, qoruyanın yanında olmalı, ona dəstək verməli idi, sncaq biz əksini görürük.

"Ermənistan yenə də köhnə xislətinə sadiqdir. Yaradanına, çörək verəninə, ölümdən qurtaranına xilaf çıxır, onu satır, başqasının kölgəsinə sığınır. Digər tərəfdən Ermənistan yaranmış vəziyyətdən öz çirkin məqsədləri üçün istifadə etmək fikrindədir. Azərbaycan ərazilərində məskunlaşan erməni silahlıları yeni təxribatlar törətməklə, atəşkəsi pozmaqla Rusiyanın diqqətini əsas məsələlərdən yayındırmağa, özlərinə cəlb etməyə çalışırlar. Sözsüz ki, bu xarici ölkələrdən onlara ötürülmüş mesajlar, tapşırıqlardır.

Ermənistan rəhbərləri, eləcə də Nikol Paşinyan xarici ölkələrə səfərlər etməklə, diqqəti təxribatlara yönəltməklə varlıqlarını, hələ də yaşamaqda olduqlarını sübut etmək niyyətindədilər. Ancaq yanılırlar. Onlar bir dövlət kimi tanınmaq istəyirlərsə ilk növbədə öz vədlərinə sadiq olmalı, çirkin, xəyanətkar əməllərindən əl çəkməlidirlər. Anlamalıdırlar ki, təcavüz, təxribat başqalarının torpaqlarına sahib olmaq xəyalı onlara fayda vermir və verməyəcəkdir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Dünyanın gözü qarşısında baş verən erməni vandallığı

## *Avropa Parlamentinin Qarabağda erməni mədəni irsinin dağıdılması ilə bağlı qəbul etdiyi qətnamə qərəzli xarakter daşıyır*



***Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, onun işğalçılıq siyasəti 30 ilə qədər davam etdi. Ermənistanın Qarabağa ərazi iddiasının tarixi kökləri, onun təcavüzkar mahiyyəti, Ermənistanın Azərbaycana qarşı müharibəsinin işğalçı xarakteri "Böyük Ermənistan" yaratmaq xülyasının nəticəsi idi. Onun Azərbaycana qarşı olan uydurma torpaq iddiaları heç bir tarixi mənbəyə söykənmir. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması, müharibənin gedişi, Azərbaycan ərazilərinin işğalı prosesi və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçılıq rejimi nəticəsində dövlətimizə külli miqdarda ziyan dəymişdir.***




10 mindən çox insanın vəhşicəsinə qətlə yetirilməsi, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrilməsi bütün dünyanın, o cümlədən demokratiya və insan haqlarını yüksək tutduğunu iddia edən Avropanın gözü qarşısında baş verirdi. Azərbaycan torpaqlarının işğalını pisləyən və erməni hərbi qüvvələrinin bütün işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının Qətnamələri 30 il ərzində kağız üzərində yerinə yetirilməmiş qalmışdı. Yüzlərlə yaşayış məntəqəsini viran qoymuş, minlərlə insanın həyatına son qoymuş Ermənistan ordusunun 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlaması Avropa parlamentarilərini hərəkətə gətirə bilmədi. Azərbaycan torpaqlarında ermənilər tərəfindən törədilmiş etnik təmizləmə, vandalizm və müharibə cinayətlərinin izləri bu gün də işğaldan azad olunmuş ərazilərdə qalmaqdadır.

Azərbaycanın tarixi abidələrinə münasibətdə ərazilərimizdə yüzlərlə tarixi-dini abidələrimizi məhv ediblər. Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.

### "ÜMUMDÜNYA MƏDƏNİ VƏ TƏBİİ İRSİN MÜHAFİZƏSİ HAQQINDA" KONVENSİYAYA ZİDD ƏMƏLLƏR

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir.

Hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılmışdır. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilmişdir. Bu dağıntıları 44 günlük Vətən Müharibəsində qazandığımız Zəfərdən sonra bu ərazilərə səfər edən xarici KİV nümayəndələri, diplomatik korpusların nümayəndəliklər öz gözləri ilə gördülər.

İşğalçılar genişmiqyaslı, qeyri-peşəkar arxeoloji qazıntı işləri aparmış, kurqanları dağıtmışlar. Həmin ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi, 103,2 min ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoqurğu, 20 ədəd kinokamera, 423 videomaqnitofon, 5920 dəst milli kişi və qadın geyimləri, 40 komplekt səsgücləndirici, 25 iri və 40 kiçik həcmli attraksion işğal dövründə dağıdılmış və ya yararsız hala salınmışdır. Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələrindən başqa respublikamıza dəymiş ümumi zərərin məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir.

Bu və ya digər faktlara diqqət salarkən, onu da qeyd etmək yerinə düşər ki, keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın Tarix-Diyarşünaslıq Muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana daşınmışdır. Şuşanın zəbt edilməsi nəticəsində mənəviyyatımıza olduqca ağır zərbə endirilmişdir. Təkcə Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun 300-dən çox əşyası qarət olunmuşdur. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar da olmuşdur.

30 ilə yaxin işğal altında olan ərazilərdə və Qərbi Azərbaycanda vəhşi işğalçılar abidələrimizə, bizim tariximizlə, mədəniyyətimizlə bağlı yerlərə divan tutublar. Bu abidələri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar. Tarixi mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və İran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd etmiş, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışmışlar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdıb, yer üzündən siliblər. Qərbi Azərbaycan torpaqlarında 1913- 1918-ci illərdə İrəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah İsmayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi İrəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edilib. O illərdə İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

### "İNDİ BƏZİLƏRİ AZAD EDİLMİŞ TORPAQLARDA ERMƏNİ XALQININ DİNİ İRSİ HAQQINDA MƏSƏLƏ QALDIRIRLAR"

Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. 30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv ediblər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub, 44 məbəd və 9 məscid təhqir edilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv olunub. Ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləridir. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər dini dəyərlərimizə hörmətsizlik edərək Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlıların heysiyyətlərinə toxunmağa çalışıblar. Dövlətimizin başçısı işğaldan azad olunmuş Zəngilan rayonunda mənfur düşmən tərəfindən dağıdılan məsciddə olarkən "Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb", deyərək dünyanın buna 30 il ərzində səssiz qaldığını qeyd edib: "Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib. Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb?".

Ermənistan hərbi qüvvələri tərəfindən yer üzündən silinmiş Xocalı şəhəri və törədilən soyqırımı dünyanın gözü qarşısında olmuşdur. Başlıbel, Ağdaban və onlarla digər kəndlərdə ermənilərin törətdiyi soyqırımı hadisələrinə səssiz qalmış Avropa Parlamenti üzvləri bu gün ermənilərin uydurduğu saxta ittihamlara qoşularaq həqiqətə uyğun olmayan iddialarla qətnamə qəbul edirlər. İnsan haqlarından, beynəlxalq və humanitar hüquqdan ağızdolusu danışan AP üzvləri Ermənistanın təcavüzkar hərəkətlərini pisləmək əvəzinə Azərbaycana qarşı erməni lobbiçiləri tərəfindən aparılan qərəzli təbliğat kampaniyalarına dəstək olurlar. Avropa Parlamentinin Qarabağda erməni mədəni irsinin dağıdılması ilə bağlı qəbul etdiyi qətnamənin heç bir əsası yoxdur.

***Nəzakət ƏLDƏDDİNQIZI***

# Tərbiyə haradan başlayır: Ailədən, yoxsa məktəbdən?

***Uşağı tərbiyə etmək prosesinə nə qədər tez başlasanız, bir o qədər təsirli olar. Bu prosesdə uşaqları təzyiq və məcburiyyətlə tərbiyə etməyə çalışmaqdansa, onları fərdi xüsusiyyətlərinə görə ayırd edib tanımaq lazımdır. Xüsusilə, hər bir uşağın xüsusi və fərqli olması prinsipi ilə hərəkət etmək, onun mükəmməl nəticə əldə etməsi üçün əvəzolunmazdır. Bu ideya ilə yola çıxan pedaqoq və ya valideyn uşaqların möhkəm təməllər üzərində tərbiyə olunmasında ilk addımı atmış olacaq.***





Uşaq tərbiyəsində sosial olmaq lazımdır. Yəni, uşağa fərdi təlim verərkən, eyni zamanda sosial meylləri də inkişaf etdirmək vacibdir. Bu yolla o, eqoistlikdən azad olur. Sosial tərbiyəni bir az da konkretləşdirmək üçün sosial qaydalar, adət-ənənələr, ictimai münasibətləri qazana bilmək uşağın yalnız şəxsi mənafeyini düşünməsinə mane olur, onun cəmiyyətə faydalı şəxsiyyət olmasına dəstək olur. Qazandıqları keyfiyyətlərlə cəmiyyətin qaydalarına əməl edən, üsyankar olmayan uşaqlar cəmiyyətə faydalı olmaq yolu ilə irəliləyirlər.



## Uşaq tərbiyəsinin elementləri hansılardır?

Uşaqları tərbiyə etməyə çalışarkən, insanı insan edən dəyərlərdən başlamaq və təhsilə hər cür dəstək vermək lazımdır.

Bəs, tərbiyə haradan başlayır? Bəzi insanlar bunu məktəbin, əksəriyyət isə valideynin boynuna yükləyir. Təbii ki, hər ikisinin fərd yetişməsində müəyyən qədər rolu var.

Doğrudur, ailə hər şeydir və hər şey də ilk öncə ailədən aşılanır. Amma belə bir həqiqət də var ki, indiki bəzi uşaq və gənclərlə heç ailə də bacarmır. Onların əksəriyyəti valideynə hörmət etmir.

Günümüzdə kifayət qədər dərsdən qaçan, oxumayan, parklarda sevgililəriylə gəzən, siqaret çəkən, alkoqol alüdəçisi olan şagirdlər var. Ən əsas məqam isə bunları oğlanlarla yanaşı qız şagirdlərin də etməsidir. Yanlış yanlışdır. Təbii ki, heç birinə haqq qazandırılmır.

İndiki şagirdlərdə oxumağa da bir o qədər istək yoxdur. Əksəriyyət "qohum-qonşu nə deyər" düşüncəsi ilə az balla da olsa, bir universitetə qəbul olmaq istəyir.

Bu yaşda olan uşaqlarla valideyn dost olmalı, onları qınamaq əvəzinə övladları ilə dərdləşməli, onu dinləməyi bacarmalıdır. Bu yolla gələcək üçün sağlam və tərbiyəli fərd yetişdirmək mümkündür.

SİA məsələ ilə bağlı araşdırma apararaq təhsil eksperti, psixoloq və sosioloqların fikirlərini öyrənib.



**Psixoloq Fidan Namazova:** "Uşağın tərbiyəsi birbaşa ailədən asılıdır. Məktəb, əsasən, təlim və təhsil ilə məşğul olur uşaqlara ümumi davranış qaydaları, mədəniyyət və cəmiyyətdə davranış ilə tanış edir. Eyni şeyi evdə görməyən uşaq tərbiyəli ola bilməz.

Məktəbdə müəllim heyətinin bir-birinə və uşaqlara olan davranışı onlara bir nümunə və örnək olur. Müəllimə əgər tərbiyəsiz və mədəniyyətsiz davransa, danışığında nalayiq söz və ya söyüşlər istifadə edərsə, şagirdə pis örnək vermiş olacaq.

Amma çox vacibdir ki, uşaq təhsil müəssisəsinə tərbiyəli gəlsin. Yəni, şagirdin tərbiyəsinin təməli və davamı ilə ailə məşğul olmalıdır".



**Təhsil eksperti Kamran Əsədov:** "Zaman artıq yeni təfəkkürü, yeni təhsil idarəetmə, şagirdə və məktəbə modern münasibəti istəyir. Prezidentimiz cənab İlham Əliyevin təhsil sahəsində yürütdüyü məqsədyönlü siyasət ölkəmizdə modern düşüncəyə, yeni dünyəvi təfəkkürə, eyni zamanda, milli-mənəvi dəyərlərə, şüura əsaslanan təhsil strategiyasını həyata keçirmək, insan kapitalını inkişaf etdirmək, intellekt resurslarını artırmaq üçün kifayət qədər geniş imkanlar verir.

Aydındır ki, məktəb və məktəbdaxili psixoloji mühit heç zaman cəmiyyət həyatından təcrid olunmuş vəziyyətdə mövcud ola bilməz. Müxtəlif kənar düşüncə və əqli xüsusiyyətləri, xarakter və xasiyyətləri şagirdlər özləri ilə istər-istəməz məktəb mühitinə daşıyır. Bu mənada təhsil, təlim və tərbiyə müəssisəsi olaraq məktəb müxtəlifliyin burulğanında fəaliyyət göstərən təfəkkürlər, davranışlar və xarakterlər qalereyasına çevrilir. Eyni zamanda bu proseslər məktəb rəhbərliyi üçün idarəetmə cəhətdən geniş imkanlar açır.

Təəssüflər olsun ki, hal-hazırda ölkədə fəaliyyət göstərən 4472 orta məktəbin heç də hamısı müasir çağırışlara cavab vermir.

*Ardı Səh. 12*



# Tərbiyə haradan başlayır: Ailədən, yoxsa məktəbdən?











**Əvvəli-Səh-12**

Məktəblərə rəhbərlik edənlərin böyük əksəriyyəti bu vəzifəyə təhsili inkişaf etdirmək, layiqli vətəndaş yetişdirmək yox, öz maddi vəziyyətlərini düzəltmək üçün gəlmirlər.

Məktəb sabahın vətəndaş emalçısıdır və bu fikrin düsturunu ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyəti, mükəmməl insani və idarəetmə keyfiyyətləri ilə yaratmış, Azərbaycan vətəndaşında müasir düşüncənin, təfəkkürün önündə getmək missiyasını üzərinə götürmək prinsiplərini aşılamışdır. "Məktəbin, müəllimin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır" ifadəsi müasir məktəbin ideoloji və fəaliyyət istiqamətini müəyyənləşdirir.

Aydındır ki, məktəb və məktəbdaxili psixoloji mühit heç zaman cəmiyyət həyatından təcrid olunmuş vəziyyətdə mövcud ola bilməz. Müxtəlif kənar düşüncə və əqli xüsusiyyətləri, xarakter və xasiyyətləri şagirdlər özləri ilə istəristəməz məktəb mühitinə daşıyır. Bu mənada təhsil, təlim və tərbiyə müəssisəsi olaraq məktəb müxtəlifliyin burulğanında fəaliyyət göstərən təfəkkürlər, davranışlar və xarakterlər qalereyasına çevrilir. Eyni zamanda, bu proseslər məktəb rəhbərliyi üçün idarəetmə cəhətdən geniş imkanlar açır. Məktəb bütün əldə olan resurs və vasitələrdən səmərəli şəkildə istifadə edərək bu müxtəlifliyi lazım olan məcraya yönəltməyi bacarmalıdır. Məktəb sabahın vətəndaş emalçısıdır və bu fikrin düsturunu ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyəti, mükəmməl insani və idarəetmə keyfiyyətləri ilə yaratmış, Azərbaycan vətəndaşında müasir düşüncənin, təfəkkürün önündə getmək missiyasını üzərinə götürmək prinsiplərini aşılamışdır. "Məktəbin, müəllimin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır" ifadəsi müasir məktəbin ideoloji və fəaliyyət istiqamətini müəyyənləşdirir.

Müasir nümunəvi məktəb şagird marağını və məmnunluğunu maksimum təmin etməyə çalışmalı, şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirərək cəmiyyətin inkişaf tempinə və tələblərinə cavab verən insan-vətəndaş formalaşdırmalıdır. Bunun üçün strateji hədəflər müəyyənləşdirilməli, beynəlxalq əlaqələr minimum maddi vəsait hesabına ən azından internet resursları vasitəsi ilə həyata keçirilməli, şagirdlərin marağına cavab verən dərslər təşkil olunmalıdır. Şagirdə, əslində, yeni düşüncə keyfiyyətlərinə malik modern insana əvvəlki üsul və metodlarla yanaşma sözün bütün mənalarında cücərən bu beyinin sıradan çıxmasına gətirib çıxarar. Müəllim yeniliyi şagirddən əvvəl mənimsəməli, onun maraq və istəklərini təmin etməli, təhsil strategiyamızın müddəalarını ardıcıl, sistemli və məqsədəmüvafiq formada aşılamalıdır".



**Yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Azərbaycanda da digər ölkələrdə olduğu kimi tədris və təlim-tərbiyə işlərində müəyyən problemlər yaşanır. Sosial şəbəkələr və internet inkişaf etdikdən sonra uşaqlar bütün bunlardan məktəblərdə də istifadə etmək həvəsinə düşüblər.

Əslində, bunun günahı təkcə uşaqlarda deyil, hamımızdadır. Müəllimlər də, məktəbdəki digər işçilər də valideyndirlər. Eyni zamanda, valideynlər də müəllim olmalıdır. Əgər valideyn uşağa evdə nəzarət etmirsə, yanlış şeylərə etirazını bildirmirsə, uşaq da hər cür tərbiyəsizlik nümayiş etdirər.

Həmçinin, xarici kinolardan cinsi azlıqların, əxlaqsız qadınların geyimlərini örnək götürə bilirlər. Ümumiyyətlə, geyim özünü ifadə etmə formalarından biri sayılır. Ümumilikdə ədəb qaydaları, sosiallaşma, ictimai yerlərdə özünü aparma qaydaları ailə mədəniyyətini nümayiş etdirir. Ona görə də, bizim gənclərin yetişməsində müəyyən problemlər ortaya çıxır. Bunu yalnız məktəbin və ya valideynin günahı hesab etmək olmaz. Əgər uşaqların fərdə çevrilməsini istəyiriksə, təhsil müəssisələri texnologiyanı pedaqoji tərbiyə vasitəsi kimi istifadə etməlidir. Təhsillə yanaşı tərbiyə, əxlaq, sosiallaşma kimi qaydaları da uşaqlara aşılamaq lazımdır".

***Ayşən Vəli***

ARAŞDIRMA

# "Zəngəzur dəhlizinin açılmasına çox böyük ehtiyac var"

***"Rusiya ilə Ukrayna arasında olan müharibə bütün dünyada diqqətlə izlənilir. Eyni zamanda, sülhün, sabitliyin və təhlükəsizliyin qorunması istiqamətində də təşəbbüslər həyata keçirilir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov bildirib.***

Onun sözlərinə görə, diplomatik siyasi zəmində danışıqlar həyata keçirilsə də, hələ ki, bu danışıqların bir nəticəsi yoxdur: "Tərəflər çox böyük siyasi tələblər irəli sürüblər. Bu baxımdan, məsələlərin hazırkı durumda tezliklə həll olunması qənaəti formalaşmır. Rusiyanın Ukraynada uğur qazanması və ya məğlub olması haqqında da müxtəlif fikirlər irəli sürülür. Eyni zamanda, qeyd etmək lazımdır ki, Rusiyaya qarşı tətbiq olunan külli miqdarda sanksiyalar Rusiya iqtisadiyyatını gələcək dövrlərdə zəiflətməyə hesablanıb. Dünya iqtisadi sisteminin tərkib hissəsi olan Rusiya hazırda məruz qaldığı sərt sanksiyalar nəticəsində milli valyutası dəyərdən düşür, digər önəmli məsələ isə bu iqtisadiyyat zəncirində yer alan dövlətlərin də domino effekti ilə mənfi fəsadlarının daha da genişlənməsi riskləridir".

İlyas Hüseynov onu da bildirdi ki, bütün dünyanın qlobal iqtisadi böhrana daxil olması ehtimal oluna bilər: "Ona görə də, burada qalib və ya məğlub tərəfin olmasını düşünməkdən daha çox iqtisadi fəsadları aradan qaldırmaq və mal dövriyyəsini təşkil etmək, ərzaq təhlükəsizliyini təmin etmək və digər strateji prioritetlər qarşıdadır. Bu xüsusda Antalya "Diplomatik Forumu"nda keçirilən müzakirələrdə də əsas diqqət məhz müharibənin fəsadlarının aradan qaldırılması və iqtisadi dövriyyənin bərpa olunması istiqamətində olacaq. Eyni zamanda, logistika və nəqliyyat baxımından da bir sıra problemlər müşahidə olunur. Dünya bazarlarında neftin və qazın qiymətləri pik həddədir və enerji təhlükəsizliyi baxımından dövlətlər hazırda təhdidlə üz-üzə qalıblar. Eyni zamanda, regional miqyasda məsələlərə nəzər salanda deyə bilərik ki, iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunması konteksində Zəngəzur dəhlizinin açılmasına da bu gün çox böyük ehtiyac vardır. Çünki nəqliyyat yük daşımalarının hazırkı dönəmdə önəmi çox böyükdür. Bu logistika əməliyyatlarını həyata keçirmək üçün alternativ marşrutlara da ehtiyac vardır. Bu baxımdan, Zəngəzur dəhlizi boyunca avtomobil və dəmiryol xəttinin çəkilməsi, həm də bölgədəki iqtisadi rifahı bir qədər də artıraraq sülhü də möhkəmləndirə bilər. Ümumilikdə postsovet məkanında Rusiya - Ukrayna müharibəsinin təsiri olacağını da qeyd edə bilərik. İlk növbədə, bu təsir iqtisadi zəmində özünü büruzə verəcək və Mərkəzi Asiya, Cənubi Qafqaz, Şərqi Avropa regionları Rusiya ilə həmsərhəd olduğu üçün bu regionlar daha çox iqtisadi zəmində bu fəsadları hiss edə biləcəklər. Ona görə də, hazırda gərginliyin daha da artırılmaması üçün hərbi əməliyyatların dayandırılması və sülh quruculuğu prosesinə başlamağa böyük zərurət var".




***Gülyana***

# Əgər Rusiya və Ukrayna müttəfiq olsaydı...

## *Və ya Qərbin bir tələsinə düşən iki böyük ölkə*



***Dünyanı diqqət mərkəzində qalmaqda davam edən Rusiya-Ukrayna müharibəsi və Rusiyanın Ukrayna qarşısında artıq ikinci həftədir ki, qalibiyyət əldə edə bilməməsi Kremlin Kiyev önündə əldə edəcəyi blits-krik iddialarını puç etdi. Artıq bütün dünya daha əvvəl Ukraynanın cəmi bir neçə günə Rusiya qarşısında diz çökəcəyini proqnoz edirdisə, indi məsələ tamamilə əksinə inkişaf edir - bu dəfə Rusiyanın Ukrayna cəbhəsində böyük itkilərə məruz qalması, hətta tükənməz raket və artilleriya zərbələrinin də nəticə verməməsi Kremlin güc stereotiplərini yerli-köklü məhv etməkdədir.***

### Rusiya ordusu Kiyevə qalan 27-30 km-lik məsafəsini iki həftədir ki, qət edə bilmir

Başqa tərəfdən, daha bir məqam budur ki, Rusiya hətta şəhər və qəsəbələri dinc əhalini nəzərə almadan hədəfə götürür, ancaq bunun müqabilində növbəti irəliləyişlərini həyata keçirməyə müvəffəq olmur. Rusiya ordusu Ukraynanın yalnız sərhədə yaxın ərazilərində mövqelənməyi bacarıb. Misal üçün, Rusiyanın ordu birləşmələri müttəfiqi Belarusun ərazisindən, daha dəqiq desək, paytaxt Kiyevə ən yaxın məsafədən Ukrayna sərhədlərinə doğru hərəkət edib və uzağı 27-30 km-lik yolu qət edə bilməyərək dayanıb. Yeganə imkan vasitəsi isə uzaqmənzilli artilleriya zərbələri və raketlərdir ki, nəticələrə görə, bu vasitələr də ukraynalıların iradəsini qıra bilməkdə acizlik çəkirlər.

Amma fakt budur ki, bu iki ölkə zamanında SSRİ-nin aparıcı lokomotivləri idilər və eyni zamanda, Sovet İttifaqı dövründə digər respublikalardan fərqli olaraq nüvə başlıqlarına sahiblik edirdilər.

### Slavyan-xristian pravoslavlığın qardaş müharibəsi

Yalnız SSRİ süquta uğradıqdan sonra Rusiya Ukraynaya təhlükəsizlik zəmanəti vəd etdi, Kiyev ona olan bütün nüvə bağlıqlarını Moskvaya geri qaytardı. Amma göründüyü kimi, bu, Kiyevin bəlkə də ən səhv addımlarından biri oldu. İndi isə artıq gecdir və müharibə də bunu sübut edir...

Lakin müharibənin daha bir maraqlı məqamı ondan ibarətdir ki, həm Rusiya, həm də Ukrayna qohum soydan ibarət millətləri - slavyanları tərənnüm edirlər. Hətta ruslarla ukraynalıları eyni dinin eyni məzhəbi belə barışdıra billmədi və mövcud müharibəni slavyan-xristian pravoslavlığın qardaş müharibəsi kimi də adlandırmaq mümkündür. Düzdür, Şərqi Avropanın digər slavyan xalqları da mövcuddur, amma ukraynalılarla (eləcə də belaruslar) ruslar arasında olan yaxınlıq dərəcələri demək olar ki, digər slavyan qrupları arasında yox səviyyəsindədir.

### Kiyev-Moskva müttəfiqliyi Qərbin ciddi başağrısına çevriləcəkdi

Lakin mövzunun məğzi həm də daha bir düşündürücü məsələyə söykənir. Misal üçün, sual oluna bilər ki, əcəba, əgər bu gün Ukrayna ilə Rusiya müttəfiq ölkələr olaraq Avropada ortaq siyasət yürütsəydilər, hansı nəticələri əldə edə bilərdilər? Yaxud, Avropa və ya Qərb bundan hansı payları ala bilərdi? Nəzərə alsaq ki, həm ukraynalılar, həm də ruslar İkinci Dünya müharibəsində faşizmə qarşı döyüşən ən çoxsaylı millət nümayəndələridirlər və müharibənin nə olduğunu, onun necə aparıldığını hələ də unutmayıblar, onda belə bir nəticə hasil etmək olardı ki, Kiyev-Moskva müttəfiqliyi Qərbin ciddi başağrısına çevriləcəkdi. Necə ki, vaxtilə inqilab baharı vasitəsi ilə devrilmiş eks-prezident, Rusiya ilə münasibətlərini müttəfiqlik səviyyəsinə qədər qaldırmağa çalışan Yanukoviçin hakimiyyətində olduğu kimi. Məhz Yanukoviç Qərb siyasi dairələrinin "bahar inqilabı" vasitəsi ilə Yuşşenko-Timoşenko cütlüyü tərəfindən devrildi və o da Rusiyaya sığınmalı oldu.



### Ukrayna Qərbin tələsinə düşməklə özünün ən ağır dövrlərindən birini yaşayır

Qərbin də planlı məqsədi o idi ki, Ukraynada öz diktəsini davam etdirəcək siyasətçiləri hakimiyyətə yiyələndirsin və həmin plan yerinə yetirildi. Və bu gün həmin planın ağır nəticələridir ki, Ukrayna Qərbin tələsinə düşməklə özünün ən ağır dövrlərindən birini yaşayır. Rusiyanın başda ABŞ və NATO olmaqla Şərqə tərəf genişlənməsinin qarşısını almaq məqsədi, Qərbin isə inadla Şərqə tərəf genişlənmək planı bu müharibənin əsasını qoydu. Çünki Qərb son ana qədər prezident Zelenskiyə əmin olmağı, ona bütün cəhətlərdən dəstək göstərməyi vəd edirdi. Putin isə yalnız öz ordusuna güvənirdi və belə görünür ki, hər iki tərəf ciddi yanılıb. Amansız müharibə isə bunun bariz sübutudur. Və bunun "niyəsini" də izah edək: Qərb Ukraynanın NATO-ya üzv olacağına vəd vermişdi, lakin həmin vədini yerinə yetirmədi. ABŞ da daxil olmaqla müharibədən əvvəl müxtəlif NATO üzvü ölkələrini təmsil edən hərbi instruktorlar Ukraynada təlimlər keçirməklə, eləcə də maliyyə və silah yardımları göstərməklə işlərini birmiş hesab etdilər. Bu gün müxtəlif Qərbi Avropa ölkələrindən legioner döyüşçülər Ukraynanın cinahında Rusiyaya qarşı döyüşlərə qatılırlar, amma bir neçə min nəfərin miqyası böyük olan savaşda iştirakları dənizdə damla kimi görünür.

Eləcə də Rusiya ilə ABŞ arasında müharibədən əvvəlki anlaşmaların yazılı qaydada təhlükəsizlik zəmanətləri verməlrəindən imtinaları da öncəki razılaşmaların üzərindən çarpaz xətlər çəkdi. Diqqət yetirək: Moskva Vaşinqtona yazılı təhlükəsizlik zəmanəti verəcəyini vəd edirdi, amma Vaşinqton qarşılıqlı olaraq hələ bu barədə düşündüyünü bəyan etdi və bu da münasibətlərin köklü dəyişməsi ilə nəticəsini tapdı.

### Qərb məhz Ukraynanı tələyə salmaqla istədiyi nəticəni minlərlə ukraynalıların qanları bahasına əldə etməyi bacardı

Bəli, etiraf edək ki, Rusiya Krımı ilhaq etdi, Ukraynanın ərazi vahidləri olan, lakin separatçılıqları ilə seçilən Donetski və Luqanskı tanıdı. Ancaq fakt budur ki, həmin məsələlərin siyasi-diplomatik yollarla həllinə də müəyyən imkanlar qalmışdı. Yaranan təməlli fikir ayrılıqları isə müharibə reallığını ortaya çıxarmış oldu.

Və sonda! Əgər Ukrayna ilə Rusiya daha əvvəldən normal diplomatik anlaşmalara imza ata bilsəydilər, bu gün Krım da, Donetsk də, Luqansk da ölkənin tərkib hissəsində qalacaqdı. Ən qazından, burada iki slavyan xalqının birliyindən söhbət gedir və düşmənçiliyə də ehtiyac olmazdı. İki ölkə birlikdə olsaydı, Qərb bu gün Şərqi Avropa regionuna Polşadan, yaxud Baltikyanı ölkələrdən o tərəfə keçə bilməyəcəkdi. Rusiya-Ukrayna birliyi mövcudluqlarını qoruyub- saxlasaydılar Kremlin Kiyevə bir neçə nüvə başlıqları yerləşdirmək imkanları da mümkünlüyə çevrilərdi. Çünki Ukrayna həqiqətən də regiondakı Şərqlə Qərbin kəsişməsi nöqtəsində xüsusi strateji əhəmiyyətə malik bir ölkədir. Bütün bunlar ola bilərdi, sadəcə kirli siyasi maraqlar və ambisiyalar həmin mümkünlüyü tamamilə fərqli şəkildə sıradan çıxardı və bu gün Qərb məhz Ukraynanı tələyə salmaqla istədiyi nəticəni minlərlə ukraynalıların qanları bahasına əldə etməyi bacardı...







**Rövşən RƏSULOV**



# Araik, get, acı aqibətini düşün!

### Yaxud, Xankəndiyə gedən qaz kəməri ətrafında cəhd edilən erməni təxribatına imkan verilməyəcək!

Qarabağdakı quldur-separatçı rejimin təmas xətlərində, daha dəqiq desək, Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərimizdə fəallaşaraq vəziyyəti gərginləşdirməyə yönəlmiş addımlarına qarşı sərt və adekvat cavablar verilməkdədir. Maraqlıdır ki, bölgədə hər hansı cüzi problem yaranar-yaranmaz dərhal Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında informasiya bülleteni hazırlanır və dolayı yolla Azərbaycan tərəfi hədəfə alınır, lakin silahlı quldurların təxribatçılıq əməlləri faktı baş verərkən, bu haqda necə deyərlər, kəlmə də kəsilmir (?!). Məhz bu kimi məqamlar Azərbaycanın ictimai-siyasi rəyini haqlı olaraq hiddətləndirir, qıcıqlandırır.

### Hələlik, prosesləri izləməkdə davam edirik...

O cümlədən, bu günün özündə də üçtərəfli bəyanatın digər bir neçə bəndləri daxil olmaqla 4-cü bəndinin realizəsi edilməməsi, yaxud RSK-nın həmin bəndə əsaslanaraq qanunsuz erməni silahlılarını Qarabağdan çıxarmaması çoxsaylı suallar doğurmaqda davam edir. Özəlliklə, RSK-nın komandanlığı barədə aşkara çıxarılan ifşaedici və danılmaz faktlardan da nəticə çıxarmaq olar ki, ya onlar üzərlərinə düşən vəzifələrini doğru-dürüst yerinə yetirə bilmirlər, ya da vəzifələrini qəsdən, "yuxarıdan" gələn hansısa sifarişlər əsasında həyata keçirmirlər. Belə olan halda, ağla gələn ilk amil də bu olur ki, Azərbaycan dövlətinin və xalqının maraqlarına qarşı müəyyən qüvvələr çıxışlar edirlər. Əks halda, hər şey üçtərəfli bəyanatda vurğulanan müddəalar, bəndlər əsasında gedərdi. Hələlik isə, prosesləri izləməkdə davam edirik.

### Ancaq gəlin görək, "suiti" Araik hansı iddiasını irəli sürür?

Beləliklə, Qarabağda əl-qollarını sallaya-sallaya rahatca şəkildə gəzən, arada-sırada bizə tərəf hürən separatçı çeteləri və onların başbilənləri özlərini Azərbaycanın həmin ərazilərinin "sahibləri" sanır, hansısa "respublika" adından bəyanatlar səsləndirir və əslində, boyunlarına yüklənmiş cinayətlərini daha da ağırlaşdırmış olurlar. Çünki onların aqibətlərinin ya ölüm, ya da həbsxana ilə başa çatacağını da əminliklə ifadə etməliyik. Xüsusilə, elə ermənilərin öz aralarında "suiti" ləqəbi ilə çağırılan qondarma "prezident" Araik Arutyunyan bu haqda düşünməlidir. Amma RSK-nın yaratdığı münbit şəraitdən də göründüyü kimi, o, hələ bu haqda düşünmür, əksinə, ittihamlarla çıxış edir. Məsələn, qondarma qurumun "təhlükəsizlik şurasının" iclasında deyir ki, sən demə, azərbaycanlılar erməniləri "respublikadan" çıxarmaq istəyirlərmiş və s.

Halbuki, Azərbaycanın dövlət rəhbərliyi dəfələrlə bəyan edib ki, ölkənin suveren ərazilərində qanunsuz silahlı quldurlar xaric bütün erməni vətəndaşları dövlətin qanunlarına tabe olaraq öz həyatlarını davam etdirə bilərlər.

Ancaq gəlin görək, "suiti" Araik hansı iddiasını irəli sürür? Misal üçün, bəllidir ki, Xankəndinə gedən qaz kəməri məhz erməni separatçıları tərəfindən partladılıb və bu gün onların qaz kəmərini "təmir" etmək adı ilə həmin istiqamətdə kəşfiyyat işlərini aparmaq maraqlarının da olduğu sirr deyil. Sakit durmayan və əllərinə düşən hər imkanda Azərbaycanda diversiyalar və təxribatlar, terror aksiyaları reallaşdırmağa çalışan quldurların qarşısını isə Azərbaycan hərbçiləri alırlar. "Suiti" Araikin iddiasına görə isə, sən demə, "təmirçiləri" qaz kəmərinə qəsdən buraxmırlar ki, Xankəndidəki mülki ermənilər bu əraziləri tərk etsinlər və s. Halbuki, quldur "suitinin" özü də yaxşı bilir və dərk edir ki, əvvəl-axır onlar bu ərazilərdən rədd olub gedəcəklər. Yalnız ölkə qanunlarına tabe olan ermənilər rahat və təhlükəsizlik şəraitində Xankəndidə, yaxud digər Qarabağ bölgələrində yaşaya biləcəklər.

### Sözügedən qaz kəməri Ermənistandan Qarabağa qanunsuz çəkilib!

Bəs Azərbaycanı "aqressiyada", yaxud digər ittihamlarda suçlayan Arutyunyanın cəhdləri nəyə görə hələ də davam edir? Yaxud, o, nəyə ümid edir ki, son ana qədər separatçı quruluşu əllərində saxlamağa müvəffəq olacaqlar?

Gəlin, məsələyə daha dərindən yanaşaq. Separatçılar Azərbaycan tərəfini ittiham edirlər ki, hərbçilərimiz onlara təmir-bərpa işlərini realizə etməyə imkan vermirlər və aparılan danışıqlar da nəticəsiz qalır. Təbii ki, bu danışıqlarda separatçı təmsilçilərinin olmamaları bəri başdan bəllidir və təması yalnız RSK qurur. Ancaq sual yaranır, nəyə görə Azərbaycan öz suveren ərazilərində Ermənistandan (!) bəli, səhv görmədiniz, məhz Ermənistandan olan insanlara imkan verməlidir ki, onlar ərazimizdən keçən qanunsuz qaz kəmərinə yaxınlaşaraq onu təmir etsinlər? Göründüyü kimi, sözügedən qaz kəməri Ermənistandan Qarabağa qanunsuz çəkilib. Lakin o da məlum olub ki, sən demə, "qaz təmirçiləri" heç separatçılar da deyillərmiş, yəni onlar Laçın dəhlizi vasitəsi ilə Ermənistandan gəliblər və bu da son deyil!

### RSK komandanlığı hansı üzlə Azərbaycan tərəfinə müraciət edir?

Gələk RSK-ya. Bütün bunlardan sonra rusiyalı sülhməramlı kontingentinin rəhbərliyi Azərbaycana məxsus yük maşınlarının məhz Azərbaycanın ərazilərində, yəni onların müvəqqəti məsul olduqları ərazilərdə idarə olunmağa imkan yaratmırlarsa, ya da bunu istəmirlərsə, onda hansı üzlə qaz kəmərinin təmirinin həyata keçirilməsi üçün müraciət edirlər?!

Qeyd edək ki, sözügedən kəmər Laçın dəhlizi boyunca çəkilib və bir ildən sonra onsuz da həmin kəmər fəaliyyətinə son qoyacaq. Bu gün Araik həm də onu qanmalıdır ki, cəmi bir ildən sonra Laçında yeni yol çəkilər-çəkilməz dəhliz Azərbaycan hərbçilərinin nəzarətinə keçəcək. Bax onda, nəinki qaz kəmərinə ehtiyac qalmayacaq, çünki yenisi çəkiləcək, habelə internet şəbəkəsi də, elektrik enerjisi də bilavasitə Azərbaycan tərəfindən veriləcək!

Əslində, mövcud situasiya ilk növbədə Qarabağ ermənilərinə qondarma rejimin "hakimiyyət dairələrinin", "təhlükəsizlik şurasının" perspektivsizliyini, həmçinin mandatı olmayan RSK-nın effektsizliyini nümayiş etdirir.

### Qarabağ erməniləri dərk etməlidirlər ki, məhz həmin hərbi cinayətkarların, qanunsuz silahlı dəstələrin günahı ucbatından onlar Azərbaycan Silahlı Qüvvələrinin qarşısına hədəf kimi, sipər kimi qoyulurlar

Məhz bütün bunlardan nəticə çıxararaq vurğulaya bilərik ki, Qarabağ ermənilərinin təhlükəsizliklərini Ermənistan silahlı qüvvələrinin qanunsuz silahlı tör-töküntüləri, RSK və s. təmin etmir. Bu təminatı bilavasitə Azərbaycan verməkdədir!

Və əslində, separatçıların girovlarına çevrildiklərini əvvəl-axır anlamağa məhkum olan qarabağlı ermənilərin özləri komfort həyat sürən quldurları, hərbi cinayətkarları həmin ərazilərdən qovmalıdırlar. Qarabağ erməniləri dərk etməlidirlər ki, məhz həmin hərbi cinayətkarların, qanunsuz silahlı dəstələrin günahı ucbatından onlar Azərbaycan Silahlı Qüvvələrinin qarşısına hədəf kimi, sipər kimi qoyulurlar. Çünki Azərbaycanın suveren ərazilərində qalan bütün qanunsuz hərbi infrastrukturları, hərbi cinayətkarları, silahlıları məhv etmək hüququ var. RSK-nın isə üzərinə düşən vəzifələrdən biri də budur ki, onlar hərbi cinayətkarların sadə ermənləri özlərinə sipər kimi istifadə etmələrinin qarşısını almalıdırlar, yox, ala bilmirlərsə, çəkilsinlər kənara və görsünlər ki, quldurlar bu ərazilərdən necə təmizlənməlidir.

Araik Arutyunyan isə "təhlükəsizlik şurasının" iclasını keçirib ittihamlar yağdırmaqdansa, gedib öz acı aqibətini düşünsün, yoxsa vaxt getgedə daha da daralmağa başlayır.

**Rövşən RƏSULOV**

***P.S.** Belə görünür ki, "suiti" Araik 7 noyabr 2020-ci ildə Xankəndidə 5-6 nəfərlə qaldığı və qaçmağa hazırlaşdığı günü unudub... Unudubsa, Azərbaycan Ordusu həmin xatirələrini ona gerçəkliyi ilə yenidən yaşada bilər və bu dəfə birdəfəlik!*

## TƏRS BAXIŞ+ÖZƏL



Təhmasib Novruzov

# Sərsəmləyən "qoca qitə" - AVROPA!

***Rəhmətlik Şükür kişinin ağıllı kəlamlarından biri də bu idi: hər qocalan ağıllı olmur, adam var qocaldıqca ağlı artır, müdrikləşir, adam da var qocaldıqca ağlını itirir, sarsaqlayır! Rəhmətlik bunu deyəndə təkcə insanları nəzərdə tuturdu. Amma sən demə bu kəlam təkcə ayrı-ayrı insanlara deyil, həm də insanların qurduğu dövlətlərə və hətta qitələrə də aid imiş. Avropanı həm də onun sinonimi kimi "qoca qitə" adlandırırlar.***

Qəribədir ki, dünya bu qocalmış qitəni müdrikləşmiş, daha ağıllı, daha ədalətli, daha obyektiv insan cəmiyyətlərinin birləşdiyi bir məkan hesab edir. Sən demə, bu qitə o qədər qocalıb ki, nəinki ağlını itirib, ədalətdən, haqqdan, hüquqdan, obyektivlikdən uzaq düşüb, adi normal insanlığını da itirib. Dünyaya ağıl verən, insanların, toplumların, cəmiyyətlərin bərabərliyindən, hüququndan ağız dolusu (yəni, bizim xalqın təbirincə desək, ağzı köpüklənə-köpüklənə) danışan bu qitənin, çaşan dövlətlər toplusunun özündə ya bir qram ağıl qalmayıb, ya da xristianlıq təəssübkeşliyi o qədər güclənib ki, özünü axmaqlığa vurmaqdan belə çəkinmir. Dünən bu qoca qitənin taleyini həll etməli olan, yəni bu "ağıllı" qitənin ən "ağıllıların"nın toplaşdığı və adını Avropa Parlamenti qoyduqları sərsəm bir toplum yenə bir yerə cəm olub bir qərar icad elədilər. Sən demə, Azərbaycan xalqı "qədim erməni abidələri"ni dağıdırmış... Allah, sən saxla, dilimə gəlmişdi e... Yaxşı, deyək ki, bu qoca qitənin sərsəm bir toplumu xristian təəssübkeşliyindən çıxış edib bu boyda yalanı qərar kimi icad eləyir. O zaman alban xalqına, yəni qədim türklərə məxsus xristian abidələrini min illərlə qoruyan, onu bütün qovğalardan salamat çıxaran Azərbaycan xalqına bu kinin qaynağı haradandır? Ermənistanda Azərbaycan türklərinə məxsus yüzlərlə dini, mədəni, tarixi abidələri, məzarlıqları yer üzündən silən erməni adlı vandal bir tayfanın əməllərinə son qoyulmasını tələb etməli olan bu sərsəmlər, hansı əsasla Azərbaycandakı "qədim erməni irsi"nin dağıdılmasından danışa bilirlər?

Əvvəla ermənilərin özlərinin də dəfələrlə etiraf etdikləri kimi, bu torpaqlara XIX əsrdən sonra rus çarlarının əli ilə köçürülən bir tayfanın bu torpaqlarda hansı "qədim irsi"ndən danışmaq olar? İkincisi, zəhmət çəkib o parlamentarilər ermənilərin otuz il işğal altında saxladıqları və cəmi 44 günə dəmir yumruq kimi birləşən xalqın azad elədiyi ərazilərə baş çəkiblərmi? Azərbaycan dövləti il yarımdı dəvət etməkdən yorulsa da, bu dağıdılmış, xarabazara çevrilmiş yurd yerlərinə səyahət etməkdən niyə qorxurlar? Özləri də gözəl bilirlər ki, gəlib bu vandalizmi yerində görsələr, içlərində haqqa-ədalətə tərəf dönüş yarana bilər (əlbəttə, içlərində insanlıqdan, vicdandan əsər-əlamət qalıbsa). Elə bunu bildiklərindən gəlmirlər, araşdırmırlar, gerçəkdən qaçırlar. Qaçırlar, cəhənnəmə qaçsınlar, gora qaçsınlar. O zaman, heç olmazsa sussunlar. İkili standartların indiki dünyanın siyasətində ana cizgi ilə keçdiyini bütün dünya bilir. Amma bu, ikili standart da deyil, heç üçlü, dördlü, beşli standart da deyil. Bu, ümumiyyətlə, standart deyil. Bunun adını nə qoymaq olar, onu da bilmirəm. Bunun adı yoxdu.

Amma bildiyim odur ki, indiki dünyada "ağsaqqallıq", "çoxbilmişlik" etmək iddiasında olan qoca qitə - AVROPA, doğrudan sarsaqlayıb, ağlını tamam itirib. Ordan-burdan çılız düşüncəli adamların fikirlərin eşidirik. Guya Azərbaycanın Rusiya ilə yaxınlığı qoca qitənin başını itirmiş başbilənlərinin xətrinə dəyir. Yox atam, Rusiya ilə eyni gömrük ittifaqında, eyni hərbi blokda olan elə Ermənistandı, Azərbaycan yox! Üstəlik, bütün Avropanı darmadağın edən, milyonlarla avropalının qanını axıdan faşizmi təbliğ edən, ən qaniçən faşistə İrəvanın mərkəzində abidə qoyan da Ermənistandı, Azərbaycan yox. Avropaya, ümumən dünyaya heç bir xeyir verməyən, dünyanın damarından yapışıb zəli kimi qanını soran erməni toplumunu yerli-yersiz müdafiə edən Avropanın, bu yerlərə, ümumən bəşəriyyətin inkişafına tarix boyu olduğu kimi bu gün də həm iqtisadi, həm mədəni, həm də siyasi yardım edən Azərbaycana və Azərbaycan türklərinə indiki münasibətin arxasında nəsə daha fundamental bir niyyətin olduğu, artıq danılmazdır. Hüquqşünas olmadığıma görə bəlkə yanılıram, bilmirəm. Amma mənə elə gəlir ki, bu qoca qitəni sərsəm kağız parçasına görə elə özünün yaratdığı məhkəməyə vermək gərək. Qoy, araşdırsınlar, görsünlər, dağılan kimindir, dağıdan kimdir! Yox əgər məhkəməsi də onlar kimi yanaşacaqsa, onda bu qitə ilə bütün siyasi və mədəni əlaqələrə son qoyub, sadəcə, alış-veriş etmək haqqında fikirləşməyə dəyər. Məncə, bu, ən doğrusu olardı!

Sonda hələ də Avropanın göbəyinin qırışlarında özünə yer edən bəzi bizdən törəyən mikrobların da, nəhayət, qanını daşıdıqları bu millətə öyündükləri qitənin münasibətini dərk edib, hardansa bir papaq tapıb qoysunlar qabaqlarına və başlasınlar fikirləşməyə...

***Son günlər mediada yayılan video və fotolarda ölkənin ən böyük çayı olan Kür çayının mənsəbinə yaxın hissəsində çayın demək olar ki quruduğu görünür. Ölkənin su sisteminin şah damarı olan bu çayın ekoloji faciəyə məruz qalaraq quruması həm əhalinin içməli su təminatında, həm suvarma sistemində, kənd təsərrüfatında çox ciddi problemlərin yaranmasına səbəb ola bilər. Problem təkcə Kür çayı ilə bağlı da deyil. Ölkənin 2-ci böyük çayında Arazda da su səviyyəsi kəskin azalıb, çayda demək olar ki su yoxdur. Əvvəllər saniyədə 300 kubmetr su axınına malik olan çay indi saniyədə 1 kub su axıdır. Bundan başqa, Kürün və Arazın qolları olan kiçik çaylarda da quruma gedir. Bu artıq həyəcan təbilidir. Bu çaylarda su bərpa olmasa həm kommunal, həm iqtisadi sahdə ciddi problemlər yarana bilər.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Su böhranı qapıda, ərzaq istehsalı təhlükədə: Nə etmək olar?

ANALİZ







### “Bəzi hallarda itkilər 40-50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk”

”Su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər, dəhşətli dərəcədə itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il iyulun 23-də keçirdiyi növbəti videoformatlı müşavirədə vətəndaşları uzun müddətdir narahat edən su qıtlığı, su təsərrüfatındakı problemlərə toxunmuşdu. Prezident çıxışında sadə vətəndaşların su qıtlığı ilə üzləşməsinin yolverilməz olduğunu, bunun dövlət maraqları, yürüdülən iqtisadi inkişaf xətti ilə ziddiyyət təşkil etdiyini demişdi. Son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişdi. Lakin problemlər var.

Prezident içməli su layihələri ilə bağlı çatışmazlıqları göstərib və qeyd edib ki, bu sahədə həm müsbət, həm mənfi təcrübə təhlil edilməlidir: ”Mənə verilən məlumata görə, bəzi hallarda suyun mənbələri düzgün seçilməyib və təbiətin dəyişməsi, iqlim dəyişikliyi, o cümlədən son iki il ərzində yaşanan quraqlıq və bunun riskləri hesablanmayıb... Sadəcə dövlət vəsaitindən istifadə edilib, layihələrin səmərəliliyi yoxlanmayıb, ona görə böyük həcmdə investisiya qoyulmuş layihələr faktiki olaraq heç bir səmərə verməyib... Biz bu məsələləri kompleks şəkildə həll etməliyik ki, gələcəkdə təbii problemlərin yaratdığı xoşagəlməz mənzərəyə və çətinliklərə hazır olaq. Əgər aidiyyəti orqanlar keçən il fəal işləsəydilər, günahı bir-birinin üstünə yıxmasaydılar və təxirəsalınmaz tədbirlər görsəydilər, bu gün biz bu problemlərlə üzləşməyəcəkdik. Bu problemlər həm insanların sağlamlığına, həm də kənd təsərrüfatının inkişafına mənfi təsir göstərir”.

Prezident qeyd edib ki, bəzi hesablamalara görə, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə səhralaşma prosesi sürətlə gedəcək: ”Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün? Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır”.

### Azərbaycan su ehtiyatının az olduğu ölkələrdəndir

Prezident İlham Əliyevin həmin müşavirədə səsləndirdiyi tənqidlər tam əsaslıdır. Su təsərrüfatının qaydaya salınması və gözlənilən böhrana hazır olmaq üçün bəzi tədbirlərin həyata keçirilməsinin vacibdir. Dövlət başçının su təsərrüfatının effektiv idarə edilməsi, su ehtiyatlarından sımərəli istifadə, yeni su mənbələrinin yaradılması ilə bağlı fərman və sərənvamları var. Bu istiqamətdə xeyli işlər də görülüb. Su anbarlarının tikintisi, çox sayda artezianların qazılması və s. Lakin bunlar problemin miqyasına adekvat deyil. Ona görə də, bu işlərin miqyası genişləndirilməli, sürəti artırılmalıdır. Kəndlilərə artezian quyusu qazdırmaq üçün imkan yaradılmalı, bunun üçün onlara faizsiz kredit verilməlidir. Bu halda əkinçilər yayda quraqlı yarananda həmin artezianlar vasitəsilə təsərrüfatlarını məhv olmaqdan, özlərini isə müflis olmaqdan xilas edə bilərlər.

Dövlət büdcəsindən və kənar fondlardan ən çox vəsait alanlardan biri su təsərrüfatıdır. Əgər burada düzgün və effektiv idarəetmə olsa, bu vəsaitlərlə su problemini kökündən həll etmək olar.

Beynəlxalq ekoloji və iqtiadi araşdırma mərkəzilərinin proqnozuna görə qarşıdan qlobal quraqlıq və su çatışmazlığı gəlir. Bunun nəticəsində ciddi ərzaq qıtlığı yaranacaq. Belə bir vəziyyətdə isə su ehtiyatları çox olan ölkələr vəziyyətdən çıxa biləcək. Azərbaycan əhali sayına nisbətdə su ehtiyatlarının az olduğu ölkələrdəndir.

Azərbaycanda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir. Yerli su ehtiyatlarına gəlincə, ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr yerli su ehtiyatı var ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Ölkəmizin hər kvadrat kilometrinə 119 min kubmetr yerli su ehtiyatı düşür. Gürcüstanda bu rəqəm 769 min, Ermənistanda isə 218 min kubmetrdir.

Azərbaycanın su mənbələrinin təxminən 70 faizinin ölkə sərhədlərindən kənarda formalaşır. Qlobal su böhranı yarandıqda qonşu ölkələr həmin çaylarda su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcəklər. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu çox ciddi strateji təhlükədir.

### Vəziyyətdən necə çıxmaq olar?

Qabaqlayıcı tədbirlər görülməsə həm içməli su, həm də suvarmada ciddi problemlər yarana bilər. Bu isə dolayı yolla ərzaq istehsalının kəskin aşağı düşməsinə, ərzaq qıtlığı və bahalaşma yaranmasına səbəb ola bilər.

Bununla bağlı ciddi strateji proqram hazırlanmalı və təcili icrasına başlanmalıdır. Su israfının qarşısı alınmalı, suyun bölüşdürülməsinin uçotuna şəffaf və mükəmməl nəzarət sistemi olmalıdır - həm dövlət, həm də qeyri-hökumət təşkilatları və media tərəfindən. Su anbarlarının və artezian qurğularının sayı sürətlə və kəskin artırılmalıdır.

Ərzaq sənayesinə aid olmayan sənaye müəssisələrində içməli suyun istifadəsinə son qoyulmalıdır. Yaxşı olardı ki, dəniz kənarında su şirinləşdirici zavodlar tikilsin və dənizdən əldə edilən su bitkilərin suvarılmasında, avtoyuyucu məntəqələrində, sənaye müəssisələrində, broyler fabriklərində və s. bu kimi yerlərdə istifadə olunsun.

Bakıya verilən təbii içməli su isə yalnız mənzillərə, iaşə müəssisələrinə və idarələrə yönəldilməlidir. Bu halda Bakıya gələn su mənbələrində gərginlik azalar, yeraltı su hövzələrinin istismar sürəti və həcmi azalar.

Azərbaycanın su resurslarının çox əhəmiyyətli bir hissəsi (təxminən 30 faizi), həm təbii çaylar, göllər, həm də süni yaradılmış su anbarları işğaldan azad olunmuş Qarabağ bölgəsindədir. Bu regionda yağıntının miqdarı yüksək, çaylar bolsulu və güclü axınlıdır. Bulaqlar çoxdur. Üstəlik, kiçik təbii göllər və böyük süni su anbarları da var. Belə ki, Xudafərin, Qız Qalası, Sərsəng və Suqovuşan su anbarları çox nəhəng tutuma malikdirlər. Bu su ehtiyatı ilə 15-20 rayonda, çox böyük torpaq sahələrində aqrar sektorun suvarma məsələsi və əhalinin içməli su ilə təminatı həll oluna bilər.

Ümumiyyətlə, su sistemində çox ciddi və kompleks tədbirlərin görülməsi vacibdir. Ölkəmizin ərzaq thülkəsizliyi də birbaşa bundan asılıdır.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# Səs

12 mart
2022-ci il

# Diqqətlə oxuyun: Bu qidalar göz üçün çox faydalıdır!

*Gündəlik olaraq həyatımızın bir hissəsinə çevrilən telefon, planşet və kompüterdən olduqca çox istifadə edirik. Bu da ən əsası gözlər üçün təhlükə yaradır və onun görmə qabiliyyətinin zəifləməsinə aparıb çıxarır. Mütəxəssislər faydalı qidalanmanın gözlər üçün xeyirli olduğunu deyirlər.*



Təbii üsulla göz zəifliyinin aradan qaldırılması üçün ən yaxşı vasitə balıq yağı, A və B vitaminləri, Omeqa-3 və Omeqa -6 ilə zəngindir. Balıq yağı bəzi göz xəstəliklərinin yaranmasının da qarşısını alır.

Həkim-oftalmoloq Aygün Rəhimzadə bildirib ki, qidaların tərkibinə daxil olan A, E, S vitaminləri və Omeqa-3 görmə üçün çox vacibdir: "Kök beta-karotinlə zəngin olduğuna görə çox faydalıdır. Tərkibində A vitamini olan qidaların hamısı torlu qişanın funksiyasına dəstək olur. Həmin vitamin yerkökündə, narıncı-sarı rəngli bir çox qida maddələrinin tərkibində var, göz büllurunun bulanmasının və katarakta xəstəliyinin qarşısını alan başlıca vasitələrdən biri S vitaminidir".

Tərkibində E vitamini və maqnezium mineralı olan badam, fındıq, qoz, fıstıq kimi digər çərəz və toxumlar da göz üçün faydalı hesab olunur. Mütəmadi olaraq E vitamini qəbul etməklə bulanıq görməyə səbəb olan katarakta və yaşla əlaqədar xəstəliklərin qarşısını almaq da mümkündür. Maqnezium mineralı gözdə əzələ və damarların normal fəaliyyətini təmin edir. Maqnezium çatışmazlığı isə göz təzyiqinin artmasına səbəb olur. "Bütün qidaların başlıca əks təsiri göz quruluğu sindromu yaratmasıdır. Həmin sindromdan əziyyət çəkən xəstələr yanma, batma, sulanma, qızartı, qaşıntı kimi şikayətlərlə müraciət edirlər. Bunun qarşısını almaq üçün çoxlu su içmək lazımdır. Orqanizmdə su qəbulu kifayət qədər olanda göz quruluğunun qarşısını almaq olar. Göz qapaqlarının dəri ilə sıx əlaqəsi var. Göz qapaqlarına tez-tez nəm islatmalar qoymaq da göz quruluğunun qarşısını alır",- deyə həkim-oftalmoloq bildirib.

Kahı, yaşıl kələm və ispanaq kimi tərəvəzlər də göz üçün faydalı qidalardır. Həmin antioksidantlar gözləri Günəş şüalarının zərərli təsirindən qoruyur. A vitamini ilə zəngin olan yumurta sarısı da göz üçün faydalıdır.



# "Barselona" öz meydanında "Qalatasaray"la bacarmadı

*Futbol üzrə UEFA Avropa Liqasında 1/8 final mərhələsi davam edir. İkinci oyun günündə 5 qarşılaşma keçirilib.*

İspaniya təmsilçisi "Sevilya" İngiltərə klubu olan "Vest Hem" ilə üz-üzə gəlib və 1:0 hesabı ilə qalib gəlib Türkiyənin turnirdəki yeganə təmsilçisi "Qalatasaray" isə bir başqa İspaniya təmsilçisi olan "Barselona"nın qonağı olub. Bir çoxlarının "Barselona"nı şəksiz favorit saydığı bu qarşılaşma İstanbul nəhənginin əzmkar mübarizəsi ilə yadda qalıb. "Qalatasaray"ın bir qolunun kəçərli olmadığı qarşılaşma qolsuz bərabərliklə bitib.

Moskva "Spartak"ı Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə əlaqədar Avropa Liqasından kənarlaşdırıldığı üçün ümumilikdə bu mərhələdə 8 oyundan 7-si baş tutmalıdır. "Spartak"ın əvəzinə isə "Leyptsiq" 1/4 finala birbaşa vəsiqə qazanıb.

# Birinci siniflərə qəbul vaxtı niyə dəyişdirildi?

"Birinci siniflərə qəbul prosesi hər il aprel ayının 1-dən başlanılsa da, bu dəfə may ayından başlanıldı. Bu isə müvafiq olaraq onlayn sistem ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, şagirdlərin yerdəyişməsi, müvafiq ərazilər üzrə məktəblərin və siniflərin seçilməsi may ayının 1-dən sentyabr ayının 15-nə qədərki dövrü əhatə edəcək: "Əslində bu məsələdə narahatlıq yaradacaq heç bir şey yoxdur. Çünki bütün təhsil müəssisələri, baxçalar Təhsil Nazirliyinin tabeliyinə verilib".



Elçin Əfəndi sözlərinə belə davam edib: "Bu səbəbdən işlərin artdığını da nəzərə alaraq qeydiyyatla bağlı sistemdə problem yaranmasın deyə may ayının 1-i tarixi əsas götürülüb. Düşünürəm ki, valideynlərə rahatlıqla qeydiyyatdan keçməsi üçün kifayət qədər vaxt verilib".

***Ayşən Vəli***



# Nar xolesterinin səviyyəsini aşağı salır...

***Nar həkim -dietoloqların fikrinə görə çoxlu xeyirli xüsusiyyətlərə malikdir. "Zee News " xəbər verir ki, nar orqaznizmi sağlamlaşdıraraq, insult və ürək tutmasının təhlükəsini azaldır. Bundan əlavə nar, qanda olan ziyanlı xolesterinin səviyyəsinin aşağı salır.***

Dietoloqların bu məhsulu sevmə səbəbi, onun az kalorili,tərkibində minimal yağ dərəcəsi, vitamin və mineralların optimal sayda olması ilə bir başa əlaqədardır. Antioksidant xüsusiyyəti isə orqanizmin hüceyrələrinin korlanma faktorlarına müdafiə rolunu oynayır.

Keçirilən tədqiqatlar onu sübut edir ki, narı daima qidaya əlavə etdikdə, o, nadir xərçəng hüceyrələri ilə mübarizədə kömək edir. O, xüsusi ilə sərbəst radikalların fəaliyyəti ilə əlaqədar olan döş xərçəngi və iltibah prosesslərində çox effektiv sayılır. Nar həmçinin hipertoniya (yüksək qan təzyiqi) xəstəliyi olan insanlara xeyirlidir. O, damarlarda olan təzyiqi azaldır. Əslində isə nar, qanı duruldaraq tromb əmələ gəlməsinə mane olma xüsusiyyətinə görə qismən aspirini əvəz edə bilər. Sonda isə onu demək istərdik ki, bu meyvə dəriyə çox yaxşı təsir edərək, travmaların sağalmasını tezləşdirərək dəridə piqment ləkələrin əmələ gəlməsinə mane olur.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**